QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 049 (5521) 15 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək"

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Binəli Yıldırım ilə görüşüb*



Səh 2

"Qlobal Bakı Forumunun fəaliyyəti dünyada gedən proseslərə müsbət təsir göstərir" 3



Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyi qeyd edilib 4



QDİƏT PA Azərbaycanda prezident seçkilərini müşahidə edəcək 5



"ArmenianReport": "Ermənistan ordusunun acınacaqlı vəziyyəti göz qabağındadır" 9



Bəhruz Quliyev: "Prezident seçkilərinə beynəlxalq marağın olacağı şübhəsizdir" 5



"Azərbaycanda aparılan siyasət yalnız xalqın mənafelərinə xidmət edir" 7



12 Ermənilərin törətdikləri ağır cinayətlərin izi - 31 Mart SOYQIRIMI



14 Mitinq uğursuzluğunun məntiqi reallığı



16 PSJ Çin şirkəti ilə 3,5 illik müqavilə imzalayıb



# “Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək”

## *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Binəli Yıldırım ilə görüşüb*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Baş nazir Binəli Yıldırımı qarşılayıb. Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Binəli Yıldırım ilə görüşü olub.***



**Prezident İlham Əliyev:**

-Hörmətli cənab Baş nazir, mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Biz sizin səfərinizə böyük önəm veririk. Əminəm ki, səfər çox uğurlu olacaq və Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək. Biz dostuq, qardaşıq, bütün məsələlərdə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, bu gün belədir və həmişə də belə olacaq. Bizi çox dərin əlaqələr bağlayır. Bu gün biz siyasi, iqtisadi, bütün başqa sahələrdə çox yüksək səviyyəli əməkdaşlıq edirik. Siyasi əlaqələrimiz ən yüksək zirvədədir, iqtisadi sahədə yaxşı nəticələr var. Keçən il ticarət dövriyyəsi artmışdır, qarşılıqlı sərmayə qoyulur. Türkiyə Azərbaycana və Azərbaycan Türkiyəyə 10 milyard dollardan çox sərmayə qoymuşdur. Bu sərmayə qoyuluşu davam edir, daha da böyük rəqəmlərə çatacaq.

Bu il TANAP layihəsinin istismara verilməsini biz birlikdə qeyd edəcəyik. Bu, tarixi layihədir və uğurla başa çatır, ölkələrimizi bir-birinə daha da sıx bağlayacaq, eyni zamanda, bu layihədən faydalanan ölkələr üçün də yeni imkanlar açacaq. Keçən il biz Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını təntənəli şəkildə qeyd etdik və bu gün bu yol artıq uğurla fəaliyyət göstərir. Bakı-Tbilisi-Ceyhan və TANAP-dan sonra bu, üçüncü tarixi layihəmizdir. Ölkələrimiz bu layihəni birlikdə icra edirlər. Yəni, bütün sahələrdə bizim əməkdaşlığımızın çox gözəl nəticələri var. Bu nəticələr xalqlarımız, ölkələrimiz üçün çox əhəmiyyətlidir və Avrasiya qitəsi üçün də böyük əhəmiyyət daşıyır.Biz bu gün bu və digər məsələləri müzakirə edəcəyik və Türkiyə ilə Azərbaycanın gələcək birgə fəaliyyəti haqqında danışacağıq. Bir daha xoş gəlmisiniz.

x x x

**Baş nazir Binəli Yıldırım dedi:**

-Xoş gördük və çox təşəkkür edirəm, hörmətli cənab Prezident.

Sizin də ifadə etdiyiniz kimi, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Ölkələrimiz arasındakı münasibətlər gündən-günə daha da inkişaf edir. Həm Türkiyədə, həm də Azərbaycanda qarşılıqlı investisiyalarımız, ticarətimiz artır, turizm sahəsində əməkdaşlığımız inkişaf edir. Biz bununla kifayətlənmirik. Eyni zamanda, region ölkələrinin də inkişaf etməsi üçün Türkiyə və Azərbaycan olaraq birlikdə çalışırıq. Qafqaz regionunda Gürcüstanın, Azərbaycanın və Türkiyənin həyata keçirdiyi layihələr - Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, TANAP, Bakı-Tbilisi-Ərzurum təbii qaz layihələri təkcə bizim ölkələri maraqlandıran layihələr deyil, eyni zamanda, Avropanı da maraqlandıran, enerji təhlükəsizliyini təmin edən layihələrdir. Uzaq Şərqdən, Orta Asiyadan Azərbaycan ərazisindən Türkiyəyə və Avropaya daşımaları təmin edəcək tarixi “İpək Yolu” - Bakı-Tbilisi-Qars layihəsi Sizin qətiyyətiniz və təşəbbüsünüzlə, cənab Prezidentimizin də töhfəsi ilə reallaşdı. Vaxtilə bir xəyal olan bu layihə indi bölgəyə xidmət etməyə başlayıb və eyni zamanda, Naxçıvana da ciddi logistik dəstək verir.

Bu gün qardaş və dost Azərbaycanda olmaqdan böyük məmnunluq duyuram. Bizə göstərdiyiniz səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm.

**x x x**

Görüşdən sonra Prezident İlham Əliyev və Baş nazir Binəli Yıldırım birgə nahar etdilər.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Quba Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 976 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1015-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# “Qlobal Bakı Forumunun fəaliyyəti dünyada gedən proseslərə müsbət təsir göstərir”

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VI Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, VI Qlobal Bakı Forumunun önəmini vurğulayan dövlətimizin başçısı bu tədbirin mütəmadi olaraq keçirilməsindən, getdikcə daha çox iştirakçını özünə cəlb etməsindən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialının və beynəlxalq səviyyədə nüfuzunun artmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanın və İsmail Serageldinin, o cümlədən İdarə Heyəti üzvlərinin bütün bu işlərə verdiyi töhfəni yüksək qiymətləndirdi və mərkəzin İdarə Heyətinin üzvlərinin fəal iş aparmaları nəticəsində bu təşkilatın fəaliyyətinin gündəliyinin genişləndiyini bildirdi.

Xoş sözlərə və Mərkəzin işinə verilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Qlobal Bakı Forumunun böyük önəm daşıdığını və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq səviyyədə nüfuzunun artdığını məmnunluqla vurğuladı. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Çində, ABŞ-da və dünyanın bir sıra ölkələrində tədbirlər keçirdiyini deyən qonaq bunu Mərkəzin fəaliyyət coğrafiyasının genişlənməsinin və dünyada bu quruma olan marağın göstəricisi kimi dəyərləndirdi.



Görüş iştirakçıları Azərbaycanın beynəlxalq rolunun artdığını, ölkəmizin sabitliyə və təhlükəsizliyə töhfə verdiyini qeyd edərək bildirdilər ki, Qlobal Bakı Forumunun fəaliyyəti dünyada gedən proseslərə müsbət təsir göstərir və artıq beynəlxalq tədbirə çevrilib.

Söhbət zamanı bu tədbirin müxtəlif tərəflər arasında fikir mübadiləsinin və müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığı vurğulandı. Sonda xatirə şəkli çəkdirildi.

# Türkiyənin Anadolu Agentliyinin və TRT kanalının rəhbərləri Azərbaycanda görüşlər keçirir



Türkiyənin Anadolu Agentliyinin və TRT televiziya kanalının rəhbərləri Azərbaycanda bir sıra görüşlər keçirir. AZƏRTAC xəbər verir ki, martın 14-də bu görüşlər çərçivəsində ilk olaraq agentliyin və televiziyanın rəhbərləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənovla görüşüblər.

Görüşdə ölkələrimiz arasında informasiya və təbliğat sahələrində birgə fəaliyyətin geniş aspektləri müzakirə olundu. Anadolu Agentliyi və TRT, o cümlədən Azərbaycanın rəsmi kütləvi informasiya vasitələri arasındakı əlaqələrdən, ayrı-ayrı hadisələrlə bağlı hər iki ölkəni təmsil edən kütləvi informasiya vasitələrinin birgə fəaliyyətindən söhbət açıldı, xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, Azərbaycanda keçiriləcək prezident seçkiləri, o cümlədən Türkiyənin cəlb olunduğu regional münaqişələr, Afrin hadisələri, qardaş ölkədə yaşanan daxili proseslər, ictimai-siyasi hadisələr və digər məsələlərlə bağlı indiyə qədər olduğu kimi, gələcəkdə də razılaşdırılmış birgə informasiya siyasətinin yürüdülməsinin zəruriliyi diqqətə çatdırıldı. Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdikləri tapşırıqlara müvafiq olaraq iki ölkəni təmsil edən rəsmi kütləvi informasiya vasitələrinin fəaliyyətinin əlaqələndirilməsi məsələsinin zəruriliyi vurğulandı.

Qeyd edək ki, Anadolu Agentliyi və TRT kanalının rəhbərlərinin Azərbaycana səfərinin məqsədi VI Qlobal Bakı Forumunda iştirak etməkdir. Onlar, eyni zamanda, AZƏRTAC-ın, Azərbaycan Televiziyası, İctimai Televiziya və ölkəmizin digər kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşlər keçirəcəklər.

# Dmitri Kumsişvili: Azərbaycanda çox mühüm məsələləri müzakirə etdik



***Azərbaycan bizim dostumuz və strateji tərəfdaşımızdır. Bu günlərdə Azərbaycana səfərimiz çox məhsuldar oldu və biz strateji tərəfdaşlığımızın daha da möhkəmlənməsi və inkişafı baxımından çox mühüm məsələləri müzakirə etdik. Bu məsələlər təkcə region üçün deyil, bütövlükdə dünya üçün mühüm əhəmiyyət kəsb edir.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili hökumət başçısı Georgi Kumsişvilinin Azərbaycana səfərinin nəticələrini şərh edərkən bildirib.

D.Kumsişvili deyib: “Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və digər rəsmi şəxslərlə olduqca məhsuldar görüşlərimiz oldu. Bu görüşlərdə qlobal enerji, nəqliyyat və infrastruktur layihələri, regional və qlobal təhlükəsizlik məsələləri barədə səmərəli danışıqlar apardıq. Nəticələr çox müsbətdir və mən bu səfəri tarixi səfər adlandırıram. Səfərin müsbət nəticələrini çox yaxın vaxtlarda görəcəyik.

# Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyi qeyd edilib











***Martın 14-də Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyinə həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, dövlət və hökumət qurumlarının, diplomatik korpusun nümayəndələri, Mətbuat Şurası İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları, media təmsilçiləri iştirak ediblər.***

Prezidentin köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək Mətbuat Şurasının 15 illik fəaliyyətini yüksək qiymətləndirib. Mətbuat Şurasının milli mətbuatımızın müasir inkişafına dəyərləri töhfələr verdiyini vurğulayan Əli Həsənov deyib: "Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl Azərbaycan jurnalistlərinin VII qurultayı keçirildi və bu qurultayda Prezident İlham Əliyevin təbrik məktubunu səsləndirdim. Bu təbrik məktubunda Mətbuat Şurasının fəaliyyətinə çox yüksək qiymət verilib. Məktubda Azərbaycan cəmiyyətində media-dövlət, media-vətəndaş münasibətlərinin formalaşmasında, media mənsubları ilə ayrı-ayrı subyektlər arasındakı münasibətlərin sivil normalarının bərqərar olmasında Mətbuat Şurasının rolu qeyd edilib. Ötən müddətdə mətbuatın özünütənzimləmə mexanizminin, o cümlədən jurnalistlərin əxlaq kodeksinin yaradılması və media nümayəndələri arasında təbliği işində Mətbuat Şurasının fəaliyyətinə yüksək qiymət verilib. Mətbuat Şurasının fəaliyyətinə ulu öndər Heydər Əliyev də yüksək qiymət vermişdi".

Prezidentin köməkçisi vurğulayıb ki, Mətbuat Şurası cəmiyyətimizdə, jurnalist ictimaiyyətində, bu quruma müraciət edən ayrı-ayrı vətəndaşlar arasında, həmçinin dövlət qurumları arasında nüfuz qazanıb. İnanırıq ki, Mətbuat Şurası fəaliyyətini getdikcə daha da möhkəmləndirəcək.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Şura son 15 ildə Azərbaycanda söz və fikir azadlığının inkişafında böyük rol oynayıb. Mətbuat Şurası 15 il bundan əvvəl 250-yə yaxın kütləvi informasiya vasitəsi, jurnalist təşkilatı tərəfindən təsis edilib. Yarandığı gündən indiyədək Şuraya 12 mindən çox şikayətin daxil olduğunu vurğulayan Ə.Amaşov qeyd edib ki, Şura bütün bu şikayətləri araşdırıb və lazımi qiymət verilib. Azərbaycan dövləti Mətbuat Şurasına daim dəstək verib. Dövlətimiz Şuranın kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı təklifləri dəstəkləyib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, Mətbuat Şurası 15 il ərzində böyük inkişaf yolu keçib. BMT Azərbaycanda müstəqil medianın inkişafında maraqlıdır. Biz Mətbuat Şurası ilə əməkdaşlıq edirik. Bu əməkdaşlıq çərçivəsində azərbaycanlı jurnalistlərə təlimlər keçiriləcək.

Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyes qeyd edib ki, Mətbuat Şurası yarandığı gündən bizim qurumla sıx əməkdaşlıq edir. Mətbuat Şurası bizim uğurlu tərəfdaşımızdır.

Professor Şirməmməd Hüseynov çıxışında Azərbaycan mətbuatının tarixindən danışıb. Ölkəmizdə mətbuata xüsusi dövlət qayğısının olduğunu deyən Ş.Hüseynov məhz həmin qayğının nəticəsində bu sahədə xeyli nailiyyətlərin qazanıldığını vurğulayıb. O, Mətbuat Şurasının 15 illik fəaliyyətinin təqdirəlayiq olduğunu bildirərək əminliyini ifadə edib ki, mətbuat sahəsində uğurlarımız davamlı olacaq.

Sonra Azərbaycan Mətbuat Şurasının 15 illik fəaliyyəti ilə bağlı videoçarx nümayiş olunub. Daha sonra Azərbaycan jurnalistikasında xüsusi xidmətləri olan bir qrup şəxsə ali media mükafatı təqdim edilib. Tədbir konsert proqramı ilə davam edib.

# Bəhruz Quliyev: "Prezident seçkilərinə beynəlxalq marağın olacağı şübhəsizdir"



*"Səs" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyevin sechki-2018.az saytına müsahibəsi*

***- Bəhruz müəllim, aprelin 11-də keçiriləcək prezident seçkilərinə beynəlxalq maraq hansı səviyyədədir?***

- Azərbaycan region üçün strateji dövlət olaraq özünü təsdiq edib. Ölkəmiz bir çox önəmli və nəhəng layihələrin təşəbbüskarı, təşkilatçısı rolunda çıxış edir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TAP, TANAP, eləcə də Cənub Qaz Dəhlizi kimi strateji layihələrin əsas təşəbbüskarı və təşkilatçısı olaraq, Azərbaycan regionun inkişafına mühüm töhfələr verməkdədir. Azərbaycan iqtisadiyyatı bu gün region iqtisadiyyatının 80 fazini təşkil edir. Ölkəmiz regionun humanitar, elmi mərkəzi kimi də geniş nüfuza malikdir. Bütün bu sadalananlar Azərbaycanın regional liderliyini tərənnüm edən faktlardır.

Qeyd etməliyəm ki, Azərbaycan qitənin də həyatında özünəməxsus rol oynayır. Bu gün Azərbaycan Şərqin dünyaya açılan qapısı olaraq dəyərləndirilməkdədir. Azərbaycan müsəlman ölkəsi kimi dünyada dinlər və mədəniyyətlər arasında dialoqun reallaşmasında mühüm təşəbbüslər irəli sürüb. Ölkəmiz bir çox beynəlxalq tədbirlərə, idman və musiqi yarışmalarına uğurla ev sahibliyi edir. Ölkəmizdə baş verən hər hansı bir hadisə dünyada diqqətlə izlənilir. Aprelin 11-də keçiriləcək prezident seçkilərinə də böyük beynəlxalq marağın olacağı şübhəsizdir. Artıq dünyanın bir çox təşkilatlarına bununla bağlı müraciətlər olunub və bəzi təşkilatlar prosesdə müşahidəçi kimi iştirak edəcəklərini təsdiqləyiblər.

***- Bəhruz müəllim, bu seçkilərin ölkəmizin gələcək inkişaf paradiqmalarının müəyyənləşdirilməsində əhəmiyyəti nədən ibarətdir?***

- Əgər ötən illərə nəzər salsaq, ölkəmizin hansı inkişafa nail olduğunun şahidi olarıq. 1990-cı illərin əvvəllərində müşahidə etdiyimiz o gərgin hadisələr, ölkəmizin müstəqilliyi qarşısında yaranmış təhdidləri xatırlasaq, həqiqətən də nə qədər nəhəng bir yol qət etdiyimizi görərik. Müstəqilliyin ilk illərində xaos və anarxiya içərisində olan bir dövlət bu gün öz müasirliyi, demokratik inkişafı ilə xarakterizə olunur. Azərbaycan böyük uğurlar qazanmış, iqtisadi inkişaf tempinə görə, dünyanın qabaqcıl ölkələri sırasında yer alan bir dövlətdir. Azərbaycanda bütün sahələrin inkişafı üçün konkret dövlət proqramları icra olunur, vətəndaşların sosial qayğıları tədricən aradan qaldırılır, müasir təhsil, səhiyyə obyektləri tikilir, geniş infrastruktur layihələri icra olunur, yoxsulluq və işsizlik əsaslı şəkildə aradan qaldırılıb, pensiya və əməkhaqları davamlı olaraq artırılır. Əlbəttə, növbəti prezident seçkiləri əldə olunmuş çox genişmiqyaslı nailiyyətlərin davamlılığının təmin olunmasında mühüm rol oynayacaq.

# QHT rəsmisi: "Seçkinin şəffaf keçirilməsi üçün bütün zəruri addımlar atılır"

"Biz bilirik ki, bütün ölkələrin həyatında ən vacib siyasi hadisələrdən biri seçkilərdir. Müvafiq qanunvericiliyə uyğun olaraq hər bir dövlətin vətəndaşları seçki vasitəsi ilə özünün idarəçilərini, hakimiyyət orqanlarını formalaşdırırlar. Bu cəhətdən düşünürəm ki, 11 aprel seçkilərinə də qeyd etdiyim kontekstdən baxmaq lazımdır. Ona fövqəladə bir don geyindirərək, ətrafında hansısa bir ajiotaj yaratmağa çalışaraq, qarayaxma kampaniyasını daha da gücləndirərək Azərbaycanda keçiriləcək 11 aprel seçkilərinə öncədən qiymət vermək cəhdləri tamamilə əbəsdir və nəticəsizdir". Bunu SİA-ya açıqlamasında Demokratik Azərbaycan Naminə gənclərin İctimai Birliyinin sədri Elməddin Behbud deyib. Onun sözlərinə görə, Azərbaycan qanunvericiliyi seçki prosesinin hansı prosedurlar üzrə keçirilməsi ilə bağlı bütün bəndləri konkret olaraq özündə əks etdirir: "Azərbaycan Konstitusiyasının ona



verdiyi yetkidən istifadə edərək cənab Prezident İlham Əliyev 11 apreldə növbəti prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncam verdi. Biz eyni zamanda bu sərəncamın daşıdığı mühüm siyasi əhəmiyyəti də bilirik. Prezident seçkilərinin keçirilməsi haqqında dövlət başçısının verdiyi qərar Azərbaycanın yerləşdiyi gərgin regionda geostrateji cəhətdən mümkün təhdidlərin önlənməsinə, ölkəmizin milli maraqlarına xidmət edən çox mükəmməl və uzaqgörən bir qərar oldu. Hazırda seçki prosesinin şəffaf, qanunvericiliyə uyğun keçirilməsi üçün bütün zəruri addımlar atılır.

Mərkəzi Seçki Komissiyasından (MSK) məntəqə seçki komissiyalarına qədər bütün seçki strukturları aktiv fəaliyyət göstərirlər və qanunlara və normativ aktlara uyğun olaraq üzərinə düşən bütün öhdəlikləri icra edirlər. Mərkəzi Seçki Komissiyası nəzdində yaradılan Müstəqil Media Mərkəzi də fəaliyyət göstərir. İstənilən kütləvi informasiya vasitəsi oradan istifadə etməklə seçki prosesi ilə bağlı məsələləri izləmək imkanına malikdir. Eyni zamanda prezident seçkilərində iştirak etmək istəyən siyasi qüvvələr və ona oppenent təşkil edən qüvvələr imzatoplama kampaniyasını başa vurublar. MSK artıq indiyədək 7 prezidentliyə namizədin namizədliyini təsdiq edib. Qarşıda prezidentliyə namizədlərin təbliğat və təşviqat prosesi dayanır. Təbii ki, bununla da bağlı MSK-nın müvafiq qərarları olacaq. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçki missiyası Azərbaycanda prezident seçkilərini müşahidə etməklə bağlı qərar verib. Düşünürəm ki, bütün bunlar ölkəmizdə 11 aprel seçkilərinin azad, ədalətli, şəffaf bir şəkildə baş tutmasına şərait yaradır. Təbii ki, kim güclüdürsə, o da qalib gələcək.

Heç kimə sirr deyil ki, Azərbaycan kimi çətin geostrateji bir nöqtədə yerləşən dövlətdə həm sabitliyi bərqərar etmək, həm də ölkənin sürətli inkişaf mərhələsinə qədəm qoymasını təmin etmək bacarığına malik olan, Azərbaycan milli maraqlarını qətiyyətlə müdafiə edən cənab İlham Əliyevə ciddi siyasi alternativ yoxdur. Bunu bütün müxalifət nümayəndələri bilir. Amma təbii ki, seçki prosesi rəqabət mühitində keçəcək və hər kəs seçicini inandırmağa çalışacaq. Meydan açıqdır və bütün siyasi qüvvələr bərabər imkanlardan istifadə edərək güclərini sınayacaqlar".

## BAXCP rəsmisi: "Ölkəmizdə seçki mühiti normal səviyyədədir"



"Azərbaycanda seçki mühiti normal səviyyədədir. İstənilən siyasi partiya seçki prosesində iştirak edə bilir". Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Niyaməddin Orduxanlı deyib. Onun sözlərinə görə, Mərkəzi Seçki Komissiyasında, Dairə Seçki Komissiyalarında, məntəqə seçki komissiyalarında kifayət qədər müxalifəti təmsil edəcək şəxslər təmsil olunur: "Aprel ayının 11-də keçiriləcək prezident seçkilərində müxalifətin əksər təmsilçiləri öz namizədi ilə seçkiyə qatılıb. Yalnız müxalifətin radikal hissəsi seçkini boykot edib. Ancaq 2013-cü il prezident seçkilərində radikal müxalifət seçkidə iştirak edib. Hal-hazırda seçki prosesi normal şəkildə davam edir. 7 nəfər şəxsin namizədliyi təsdiq edilib və bir neçə şəxsin də qeydə alınması gözlənilir. Azərbaycan dövləti demokratik şəraitdə seçki prosesinin keçirilməsində yaxından iştirak edir".

## Prezident seçkiləri ilə əlaqədar Azərbaycanın Ukraynadakı səfirliyində seçki məntəqəsi yaradılıb



Aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə əlaqədar ölkəmizin Ukraynadakı səfirliyində seçki məntəqəsi yaradılıb. AZƏRTAC xəbər verir ki, 17 saylı Yasamal üçüncü seçki dairəsinin nəzdində yaradılmış 39 saylı seçki məntəqəsində hazırlıq işləri başa çatıb. Məntəqə seçki komissiyasının sədri Vüsal Süleymanov bildirib ki, məntəqədə səfirliyin əməkdaşları ilə yanaşı, Ukraynada fəaliyyət göstərən Azərbaycan şirkətlərinin nümayəndələri, bu ölkədə təhsil alan azərbaycanlı tələbələr, eləcə də həmin gün müvəqqəti olaraq Kiyevdə səfərdə olan və xidməti vəzifələrini icra edən ölkə vətəndaşları səs verə biləcəklər. Onların sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb.

## QDİƏT PA Azərbaycanda prezident seçkilərini müşahidə edəcək

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Assambleyasının müşahidə missiyası aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərini izləyəcək. AZƏRTAC xəbər verir ki, bu barədə sechki-2018.az saytına açıqlamasında QDİƏT Parlament Məclisinin baş katibi Asəf Hacıyev məlumat verib. Baş katib qeyd edib ki, müşahidə missiyasının tərkibinə təşkilata üzv ölkələrin deputatları daxil ediləcək.




Azərbaycandakı seçkiöncəsi mühitdən danışan A.Hacıyev deyib: "Azərbaycanın seçki təcrübəsi və ölkədəki seçki mühiti qənaətbəxşdir. Hər bir ölkənin öz tarixi yolu, ənənələri var. Azərbaycanın da özünün demokratik prinsiplərə söykənən seçki ənənələri mövcuddur. Bütün proses qanun çərçivəsində aparılır. Hesab edirəm ki, 11 aprel seçkiləri demokratik normalar çərçivəsində baş tutacaq. Azərbaycanın şəffaf və ədalətli seçki keçirməyə imkan verən qanunvericiliyi var".

## İlhan Aşkın: Azərbaycan xalqı öz prezidentini demokratik yolla seçəcək



Azərbaycanda tam şəffaf və demokratik seçkilərin keçirilməsi istiqamətdə bütün addımlar atılıb. Bu sözləri Hollandiya-Azərbaycan Türk Dostluq Cəmiyyətinin sədri İlhan Aşkın sechki-2018.az saytına açıqlamasında deyib. O bildirib ki, Azərbaycan xalqı öz prezidentini demokratik yolla seçəcək. "Demokratik seçki gələcəyin təminatıdır. Azərbaycanda baş tutacaq seçkilər regionda, xüsusilə də Dağlıq Qarabağ münaqişəsi üzrə sülh prosesində də öz rolunu oynayacaq. Çünki zəngin demokratik seçki təcrübəsi olan Azərbaycan üçün regionda sülhün olması çox vacibdir", -deyə İlhan Aşkın vurğulayıb Hollandiya-Azərbaycan Türk Dostluq Cəmiyyətinin sədri əlavə edib ki, 11 aprel seçkilərinin nəticəsi iqtisadi sahədə görülən işlərin gələcəyi üçün də çox vacibdir .

# MDP və AXP sədrləri milli xəyanətkarları şiddətlə qınadılar

*Xaricdə oturub sosial şəbəkələrdə Azərbaycandakı insanlar haqqında təhqiramiz ifadələr yazmaq və videolar paylaşmaq yolverilməzdir*





Son vaxtlar sosial şəbəkələrdə "klaviatura qəhrəmanlığı" edərək, özlərini "siyasi mübariz" kimi göstərən trolların, eyni zamanda, Avropada mənəvi dəyərlərə sahib olmadıqlarını sərgiləyən və "siyasi mühacir" adı altında dövlətçilik maraqlarını satan ünsürlərin həmin istiqamətdə fəallaşmaları ölkə ictimaiyyətinin müxtəlif təbəqələri tərəfindən kəskin şəkildə qınanılır. Hətta müxalifət cinahında olan şəxslər də bu cür əxlaqi dəyərlərdən uzaq olan addımları pisləyərək, sözügedən ünsürlərin normal təfəkkürə sahib olmadıqlarını deyirlər. Belə ki, istər Azərbaycanda fəaliyyət göstərən radikal müxalifət partiya sədrlərinin, xüsusilə, AXCP sədri Əli Kərimlinin, eləcə də, "Milli Şura"da təmsil olunan dırnaqarası müxaliflərin, istərsə də, onların iyrənc siyasətlərinə dəstək göstərən avropalı "siyasi mühacirlərin" eyni baxışdan çıxış etmələri artıq dəfələrlə pislənilib və bundan sonra da pislənməkdə davam edəcək. Çünki azərbaycançılığa xas olmayan əxlaqi, milli-mənəvi dəyərlərə aid olmayan bənzər çirkinliklər heç vaxt bu dəyərlərə hörmət göstərən insanlar tərəfindən dəstəklənə bilməz. Məhz bu baxımdan, artıq bu kimi arzuolunmaz hal müxalifət düşərgəsində təmsil olunan, hətta zaman-zaman radikallıqları ilə seçilən siyasilər tərəfindən də kəskin şəkildə qınanılmaqda, şiddətlə rədd edilməkdədir.

### Nemət Pənahlı: "Sosial şəbəkələr vasitəsilə ölkəmiz haqqında təhqirlər yazmaq əxlaqsızlıqdır"

Bu arada, Milli Dövlətçilik Partiyasının (MDP) sədri Nemət Pənahlı "SƏS"ə verdiyi açıqlamasında sözügedən amillə bağlı deyib ki, dövlətçilik maraqlarına qarşı çıxan, Azərbaycanda gedən ictimai-siyasi proseslərə əks olaraq, yalan və böhtanlar danışan, habelə, ölkəmiz barədə Avropanın müxtəlif qurumlarına davamlı şikayətlər edənlər özləri əxlaqsızdırlar. "Mən həmişə demişəm, Azərbaycan haqqında Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək, xaricdə oturub, sosial şəbəkələr vasitəsilə ölkəmiz haqqında təhqirlər yazmaq əxlaqsızlıqdır"-deyə qeyd edən MDP sədrinin sözlərinə görə, xaricdəki mühacir həyatı yaşayan bəzi azərbaycanlıların Azərbaycan dövləti əleyhinə iş aparması yolverilməzdir.

### MDP sədri: "Vidadi İsgəndərli haqqında düşündüklərimdən qəti şəkildə imtina etdim"

Söz yox ki, N.Pənahlı burada Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Emin Hüseynov və sairlərini, eyni zamanda, son vaxtlar aqressiv və tərbiyəsizliyi ilə daha çox seçilən Vidadi İsgəndərlini nəzərdə tutur. Bu səbəbdən, MDP sədri bildirib ki, daha öncə V.İsgəndərlinin paylaşdığı videonu gördükdən sonra ona sərt münasibət bildirib, lakin səhərisi gün sosial şəbəkələrdə təhqiramiz statusları oxuduqdan sonra fikrindən imtina edib. "Vidadi İsgəndərlinin videosundan sonra yazılan təhqirləri gördüm və onun haqqında daha öncə düşündüklərimdən qəti şəkildə imtina etdim. Düşünürəm ki, qarşılıqlı təhqirlər, ittihamlar aradan qaldırılmalıdır"-deyə N.Pənahlı vurğulayıb.

### Pənah Hüseyn: "İstər Azərbaycanın daxilində, istərsə də xaricdə oturub insanların şəxsi həyatı və yaxud qohum-əqrəbası ilə bağlı hansısa qeyri-etik ifadələr işlətmək bizim dəyərlərimizə uyğun məsələ deyil"

Digər müxalifətçi partiya rəhbəri, Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn də hesab edir ki, siyasi mübarizəni əxlaqsız və çirkin yollarla aparmaq heç bir mənəviyyata sığmayan və təəssüfedici haldır. AXP sədri də AXCP-"Milli Şura" cütlüyünün rəhbərlərinə, həmçinin, bu qurumların ətrafında olan bəzi radikal müxalifət mövqeli dairələrə eyham vuraraq bildirib ki, onların baxışları milli dəyərlərə cavab vermir. "Ümumiyyətlə, istər Azərbaycanın daxilində, istərsə də xaricdə oturub insanların şəxsi həyatı və yaxud qohum-əqrəbası ilə bağlı hansısa qeyri-etik ifadələr işlətmək bizim dəyərlərimizə uyğun məsələ deyil"-qeyd edən AXP sədrinə görə, məhz bu baxımdan, xaricdə oturub sosial şəbəkələrdə Azərbaycandakı insanlar haqqında təhqiramiz ifadələr yazmaq və videolar paylaşmaq yolverilməzdir.

### AXP sədri: "Təsirli addımalrın atılmasına ehtiyac var"

P.Hüseyn bu cür hallara rəvac verən və müxalifət adı altında fəaliyyət göstərən şəxslərə, siyasi qurumlara qarşı daha kəskin addımların atılması zəruriliyinin olduğunu vurğulayıb: "Bunun qarşısını almaq üçün müəyyən təsirli addımalrın atılmasına ehtiyac var".

Beləliklə, aparılan təhlillərdən və əks-düşərgədə fəaliyyət göstərən tanınmış müxalifət partiyalarının sədrlərinin mövqelərindən də açıq-aydın görünür ki, Azərbaycanın milli dövlətçilik maraqları ilə yanaşı, mənəvi dəyərlərini ayaq altına atan, xalqı öz yalanları ilə uçuruma aparmağa çalışan, xarici siyasi dairələrin təsiri altında fəaliyyət göstərən istənilən şəxslərə qarşı qanunun sərt dili ilə danışmaq lazımdır.

**Rövşən RƏSULOV**

## Türkiyə-ABŞ danışıqları üçün nəzərdə tutulan vaxt dəyişib



Türkiyə və ABŞ arasında aparılacaq danışıqların vaxtı dəyişdirilib. AZƏRTAC Türkiyənin rəsmi mənbələrinə istinadla xəbər verir ki, buna səbəb Reks Tillersonun dövlət katibi vəzifəsindən istefaya göndərilməsidir. Xatırladaq ki, danışıqlar Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və ABŞ-ın keçmiş dövlət katibi Reks Tillerson arasında aparılmalı idi.

## İndiyədək sahibkarlara 5311 lisenziya verilib



İndiyədək sahibkarlara 5311 lisenziya verilib. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib. Nazir müavini qeyd edib ki, bunun 2719-u yeni verilən, 2592-si müddətsiz lisenziya ilə əvəz edilən və yenidən rəsmiləşdirilən lisenziyalardır.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi tərəfindən 2015-ci il noyabrın 2-dən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziya tələb olunan fəaliyyət növləri üzrə lisenziyalar "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə başlanılıb.

## Özbəkistan portalı Azərbaycanda həyata keçirilən aqrar islahatlar barədə yazır

Özbəkistanın "Review.uz" portalı "Azərbaycanda geniş aqrar islahatlar aparılır" sərlövhəli məqalə yayıb.



Məqalədə Azərbaycanda həyata keçirilən aqrar islahatlar, qəbul edilən dövlət proqramları, çayçılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafı ilə bağlı görülən tədbirlər barədə ətraflı məlumat verilir. Müəllif Azərbaycanda çayçılığın tarixi haqqında məlumatları oxuculların diqqətinə çatdırır. Azərbaycan çayının dünyanın bir çox ölkələrinə ixrac edildiyi bildirilir. Yazıda çəltikçilik və sitrus meyvəçiliyinin tarixi haqqında da məlumat verilir.

## Bakı Media Mərkəzi və Qida Təhlükəsizliyi Agentliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb




Martın 14-də Bakı Media Mərkəzi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. AZƏRTAC xəbər verir ki, əməkdaşlıq memorandumuna əsasən tərəflər qarşılıqlı əməkdaşlıq əlaqələrini inkişaf etdirmək, ictimaiyyətlə əlaqələrin qurulması, müxtəlif layihələrin icra edilməsi, eləcə də Korporativ Sosial Məsuliyyət işinə töhfə vermək üçün birgə fəaliyyətlərin təşkili məqsədilə razılığa gəliblər. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli çıxışında qida təhlükəsizliyi sahəsində innovativ layihələrin icrasının vacibliyini vurğulayıb.

Agentliyin sədri diqqətə çatdırıb ki, rəhbərlik etdiyi qurum 2017-ci ilin fevral ayından Prezident İlham Əliyevin imzaladığı Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanla yaradılıb. Bu ilin yanvar ayından isə artıq fəaliyyətə başlayıb. Sözügedən fərman qida təhlükəsizliyi sahəsində təkmilləşdirilmə sisteminin həyata keçirilməsidir.

Q.Təhməzli bildirib ki, ən vacib məqamlardan biri qida təhlükəsizliyi zəncirində iştirak edən subyektlərin özlərinin qida təhlükəsizliyi haqqında məlumatlandırılması, eyni zamanda ictimaiyyətin maarifləndirilməsidir. Bu məsələ həm də yaxın zamanda qida təhlükəsizliyi anlayışının formalaşmasını və hər bir Azərbaycan vətəndaşının sağlamlığına ictimai nəzarəti təmin edəcək. Onun sözlərinə görə, bu aktual problemin həllində media çox aktiv rol oynayır. Çünki ictimaiyyətə düzgün və dolğun məlumatların çatdırılması və maarifləndirilmə işlərinin aparılması sahəsində medianın rolu danılmazdır. Bunun üçün hər bir vətəndaş da bu sahədə fəal olmalıdır.

Sonra Qida Təhlükəsizliyi Agentliyinin rəsmi loqosunun təqdimatı olub. Bakı Media Mərkəzinin direktoru Orman Əliyev isə bildirib ki, Qida Təhlükəsizliyi Agentliyinin loqosunda qida təhlükəsizliyinin əsas anlayışlarından olan qida zənciri və bərəkət rəmzi sayılan sünbülün elementlərindən istifadə olunub. O, həmçinin bildirib ki, agentliyin fəaliyyəti ilə bağlı müxtəlif reklam aksiyaları və videoçarxlar hazırlanacaq.

# Gəncədə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda konfrans keçirilib



Martın 14-də Gəncədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda konfrans keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, konfransda DQİDK-nın və şəhər icra hakimiyyətinin məsul işçiləri, Milli Məclisin deputatı Naqif Həmzəyev, Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın üzvləri, dini icma sədrləri, din xadimləri, gənclər və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Konfransı açan DQİDK-nın sədri Mübariz Qurbanlı ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyini, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığını diqqətə çatdırıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini vurğulayan M.Qurbanlı Azərbaycanın İslam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanındığını deyib.

Mübariz Qurbanlı qeyd edib ki, bu gün dünyada baş verən neqativ hadisələrin fonunda bu dəyərlərin böyük önəm daşıdığının şahidi oluruq. Din pərdəsi altında insanlar arasında təfriqə salmaqla xaos yaratmaq xoşagəlməz reallığa çevrilib. Radikal dini təşkilat yaratmaq və yaxud onlara maddi-texniki dəstək verməklə öz məkrli niyyətlərini həyata keçirməyə çalışanlar müsəlman dünyasında qarşıdurmanı dərinləşdirməyə, İslam dünyasını zəiflətməyə və yekun nəticədə coğrafi baxımdan böyük strateji əhəmiyyət daşıyan ərazilərdə hegemonluğa cəhd göstərirlər. Ona görə də bu gün müsəlman dünyasında din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar arayıb tapmağa hər zamankından daha çox ehtiyac var. Bu yol isə dini tolerantlığın, birgəyaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir.

Komitə sədri çıxışında istər qeyri-səmavi, istərsə də səmavi dinlərin keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, dinlərin daxilindəki məzhəb və təriqət ayrılıqlarını, eləcə də ayrı-ayrı dinlər arasındakı mövcud münasibətləri şərh edib. İştirakçılara İslam tarixi və coğrafiyası haqqında maraqlı məlumatlar verilib. Eyni zamanda, bu gün İslam aləmində baş verən siyasi proseslər, böyük siyasi-ideoloji və hərbi güc mərkəzləri tərəfindən İslam ölkələrində yaradılmış süni münaqişələr, bu cür hadisələrin İslam dininə mənsub xalqların tarixi irsinə, maddi-mədəni və mənəvi dəyərlərinə, eləcə də müasir inkişafına vurmuş olduğu böyük ziyanlar konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

"Ölkəmizdə yaşayan hər bir vətəndaşın etiqad azadlığı Azərbaycan Respublikasının ali hüquqi sənədi olan Konstitusiyada təsbit edilib. Din dövlətdən ayrı olsa da, dövlət-din münasibətləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalarla və ölkəmizin mövcud qanunvericiliyi ilə tənzimlənir. Bununla yanaşı, Azərbaycan dövləti və Prezident İlham Əliyev İslam dininə, eləcə də ölkəmizdə tarixən mövcud olan bir çox dinlərə, həmin dinlərlə bağlı müqəddəs məkanlara tarixi, maddi-mədəni irsin bir hissəsi kimi yanaşır və bu cür yerlərin təmir edilməsinə, mənəvi dəyərlərin isə geniş təbliğinə daim dəstək verir" - deyə M.Qurbanlı qeyd edib.



Qafqaz Müsəlmanları İdarəsinin Gəncəbasar üzrə səlahiyyətli nümayəndəsi Tahir Abbasov regionlarda keçirilən bu cür konfransların məqsədinin Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasından, dini mühitdə radikallığa meylin səbəbinin öyrənilməsi, dəyərləndirilməsi və onun qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılmasından, bu sahədəki kompleks tədbirlərin səmərəliliyinin daha da artırılmasından ibarət olduğunu diqqətə çatdırıb.

Bildirilib ki, son illərdə respublikamızın bütün bölgələri kimi, Gəncə şəhəri də hər bir sahədə özünün müasir inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin bu şəhərə diqqət və qayğısı nəticəsində Gəncənin bütün dini-tarixi memarlıq abidələri əsaslı şəkildə yenidən qurulub. Sonda iştirakçılara Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən çap olunan kitablar paylanılıb.

Konfransın ikinci hissəsi "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam edib.

Orta məktəb direktorlarının təlim-tərbiyə üzrə müavinlərinin, ümumtəhsil məktəblərində çalışan psixoloq və "Həyat bilgisi" fənnini tədris edən müəllimlərin iştirak etdiyi tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Komitənin Dini qurumlarla iş üzrə şöbəsinin əməkdaşı Əli Həziyev, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Ayxan Babayev çıxış ediblər.

Dövlət Komitəsinin sədr müavini radikalizmə qarşı mübarizədə dini maarifləndirmənin önəminə toxunub. Vurğulayıb ki, radikal qrupların zərərli ideyalarının yayılması cəhdlərinin qarşısının alınmasında gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliği mühüm rola malikdir. Bu məqsədlə gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görülür.

Digər çıxışlarda ölkəmizdə radikalizm ideyalarının yayılmasının qarşının alınması, dinlə, milli-mənəvi dəyərlərimizlə bağlı düzgün maarifləndirmə işinin aparılması və təbliğ edilməsi barədə müzakirələr aparılıb.

# Məlahət İbrahimqızı: "Azərbaycanda aparılan siyasət yalnız xalqın mənafelərinə xidmət edir"

"Ölkəmiz Qərblə Şərqin qovuşuğunda strateji bir məkanda yerləşir. Ona görə də, ölkəmiz daim dünyanın diqqət mərkəzindədir". Bu fikirləri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. M.İbrahimqızı bildirib ki, Azərbaycan müstəqil siyasət həyata keçirir, heç bir xarici qüvvənin diktəsi ilə hərəkət etmir. Onun sözlərinə görə, Azərbaycan dövləti tərəfindən aparılan xarici və daxili siyasət nəticəsində cəmiyyət uğurla bütün sahələrdə inkişaf edir".

"Azərbaycanda aparılan siyasət yalnız və yalnız xalqın köklü mənafelərinə xidmət edən bir siyasətdir. Ona görə də, düşünürəm ki, bu, bəzi böyük dövlətləri əlbəttə ki, qane etmir. Lakin Azərbaycan rəhbərliyi yalnız Azərbaycan xalqının mənafeyinə uyğun bu ölkəni inkişaf etdirir. Bunun hamımız şahidiyik. Onların da bu məkrli siyasəti baş tutmayacaq. Azərbaycan müstəqil siyasət həyata keçirməklə uğurlar qazanmaqda davam edəcək"- deyə, YAP Siyasi Şurasının üzvü vurğulayıb.



# Ölkə üzrə Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78,3 faizi Naxçıvanın payına düşür

Ötən il muxtar respublikada 431 milyon 691 min kilovat-saat elektrik enerjisi istehsal olunub ki, bu da 2006-cı ildəki göstəricidən 93,2 faiz çoxdur. Elektrik enerjisinin 231 milyon 432 min kilovat-saatı və ya 53,6 faizi istilik elektrik stansiyalarında, 168 milyon 946 min kilovat-saatı və ya 39,1 faizi su elektrik stansiyalarında, 31 milyon 313 min kilovat-saatı və ya 7,3 faizi isə Günəş elektrik stansiyasında istehsal edilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 46,4 faizini təşkil edib. Ölkə üzrə Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78,3 faizi muxtar respublikanın payına düşüb.

Alternativ və bərpa olunan enerji növləri istehsalının daha da artırılması məqsədilə hazırda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsi üzrə Naxçıvan şəhərində daha müasir smartkart tipli sayğaclar quraşdırılır. Elektrik enerjisinin istehlakçılara keyfiyyətli və fasiləsiz çatdırılması istiqamətində ötən dövrdə "Sədərək", "Çeşməbasar", "Koroğlu", "Xalçaçılıq", "Şərur", "Naxçıvan", "Ordubad", "Qıvraq", "Nehrəm", "Şahbuz" və digər transformator yarımstansiyaları tikilib və ya yenidən qurulub.

# “Həmin şəxslər iyrənc əməllərindən əl çəksinlər”

## “Radikal müxalifət bu gün özünü siyasətdən kənarda qoyaraq, ən alçaq və qeyri-etik üsullardan istifadə edir”

***Özlərini virtual aləmin “qəhrəmanı” hesab edən bir neçə xarici ölkələrdə məskunlaşan mühacir Azərbaycan əleyhinə anti-təbliğat kampaniyası aparırlar. Bu isə, haqlı olaraq, ölkə içtimaiyyəti tərəfindən narazılıqla qarşılanır. Ziyalılar, partiya sədrləri, Milli Məclisin deputatları, QHT təmsilçiləri xaricdə oturub sosial şəbəkələr vasitəsi ilə Azərbaycan xalqının ünvanına təhqiramiz ifadələr sələndirənlərin əməllərini qətiyyətlə pisləyirlər.***

### Millət vəkili Eldəniz Səlimov: “Virtual dil qəhrəmanlarına rast gəlinir ki, onlar ailə tərbiyəsini sosial şəbəkələrə gətirirlər”



- Sosial şəbəkələrdə baş alıb gedən hərc-mərclik o yerə gəlib çatıb ki, Azərbaycan xalqına xas olmayan ifadələr işlədilir, bu da milli dəyərlərimizə kölgə gətirir. Sosial şəbəkələr informasiya vasitəsi kimi müasir texnologiyanın yaratdığı bir şəbəkədir. Bu vasitədən normal insanların istifadə etməsi hər bir kəsin intellektinin inkişafına, informasiyanın yayılmasına və digər mühüm əhəmiyyət kəsb edən prosesləri insanların nəzərinə çatdırmaqdan ibarətdir. Son vaxtlar müxalifət qazanının dibini yalayan virtual dil qəhrəmanlarına rast gəlinir ki, onlar ailə tərbiyəsini sosial şəbəkələrə gətirirlər. Müxalifətin son mitinqinə çağırışla bağlı səsləndirilən “Mitinqə gəlməyənlər kişi deyil ifadəsi hər bir kəsin qəlbinə toxunan ifadədir. Təbii ki, bu ifadəni işlədən hər bir kəsin o ifadəyə mənsub olduğunu araşdırmaq vacib şərtdir. Mübarizəni sivil qaydada aparırlar. Bu gün ölkəmizdə sivil qaydada mübarizə apara biləcək radikal müxalifət yoxdur. Ona görə də, Azərbaycan xalqına xas olmayan bu cürə ifadələrlə insanları istiqamətləndirmək özü insanlıqdan kənar bir haldır.

### AXP sədri Pənah Hüseyn: “İnsanlar haqqında təhqiramiz ifadələr yazmaq, videolar paylaşmaq yolverilməzdir”

- Ümumiyyətlə, istər Azərbaycanın daxilində, istərsə də xaricdə oturub insanların şəxsi həyatı və yaxud qohum-əqrəbası ilə bağlı hansısa qeyri-etik ifadələr işlətmək bizim dəyərlərimizə uyğun məsələ deyil. Bu baxımdan, xaricdə oturub sosial şəbəkələrdə Azərbaycandakı insanlar haqqında təhqiramiz ifadələr yazmaq və videolar paylaşmaq yolveriməzdir. Bunun qarşısını almaq üçün müəyyən təsirli addımalrın atılması ehtiyac var.



### “Yurddaş” partiyasının sədri Mais Səfərli: “Onlar küçə təfəkkürünə malik olan tullantılardır”



- Radikal müxalifət bu gün özünü siyasətdən kənarda qoyaraq ən alçaq və qeyri-etik üsullardan istifadə edir. Özlərini mühacir adlandıran şəxslərin Azərbaycan haqqında xoşagəlməz fikirlər səsləndirmələri onların küçə təfəkkürünə malik tullantılar olduğunu göstərir. Hətta həmin şəxslər dövlətimizin simvollarını belə təhqir edirlər. Ona görə də, bunlardan hər şey gözləmək olar. Xaricdə olan həmin şəxslərin bu cür davranışları küçə davranışıdır. Yəni bu, siyasi davranış və siyasi fəaliyyət deyil. Siyasətdən, əxlaqdan və mənəviyyatdan uzaq bir məsələdir. Xaricdə olan həmin şəxslərin bu cür hərəkətləri onlara qarşı nifrət hissini daha da artırır. Onsuz da cəmiyyət onları dəstəkləmir. Ona görə də, yaxşı olardı ki, həmin şəxslər iyrənc əməllərindən əl çəksinlər.

### AMİP funksioneri Əli Orucov: “Mübarizənin də əxlaqi normaları və qaydaları var”

- Təəssüflər olsun ki, son zamanlar söyüşü, təhqiri və alçaltmaları mübarizə metodu kimi istifadə edənlərin sayı artmadadır. Bu hal təkcə tərbiyə, mənəviyyat və əxlaq problemi deyil, həm də psixoloji problemdir. Mübarizənin də əxlaqi normaları və qaydaları var. Siyasətlə məşğul olanlar hər cür yüksək parametrlərinə görə seçilməli və etalon olmalıdırlar. Ola bilsin ki, kimlərsə öz səviyyəsinə uyğun olaraq qeyri-standart yolu seçib, lakin bu, heç də o demək deyil ki, eyni üslubda cavab verilsin. Mitinqlər sosial sifarişdir. Cəmiyyətdə narazılıqların olması mümkündür. Bu narazılıqlar sosiallaşmırsa, küləviləşmirsə, deməli, bunun bir günahı da siyasi partiyaların üzərindədir. Kütləvi aksiyaları keçirmək üçün xeyli vaxt və böyük zəhmət, inandırma tələb edir, yoxsa yuxudan du-



rar-durmaz mitinq elan edib, sonra da söyüşlə, təqhirlə mitinqə insanları gətirmək, əsla, mümkün deyil. O söyüş söyənlər bilməlidirlər ki, söyüşün də iki başı, iki tərəfi olur. Eyni qayda ilə də cavab verilə bilər və verilir də. Sosial şəbəkələrdən söyüş yağdıranların hamısı psevdoadlar altında gizlənmiş cəmiyyət üçün yaramaz insanlardır. İnanıram ki, bu cür xoşagəlməz tendensiyalar tezliklə aradan qaldırılacaq. Həmin şəxslər də öz məsuliyyətlərini dərk edəcəklər.

### “Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev: “Bu, etik çərçivələri aşır və əxlaqi prinsiplərə ziddir”



- Təbii ki, bir qrup müxalifətyönlü sosial şəbəkə istifadəçilərinin sosial şəbəkələrdə söyüş söymələri mübarizə metodu deyil. Yəni bu etik çərçivələri aşır və əxlaqi prinsiplərə ziddir. Bir sözlə, siyasi mübarizədə bu cür vasitələrdən istifadə edilməsi yolverilməzdir. Deməli olar ki, bu metodlara yol verənlərin əxlaqi səviyyəsinin bir göstəricisidir.

Xaricdə oturub sosial şəbəkələrdə Azərbaycan haqqında ağzına gələni danışan şəxslərin əməlləri bütün müstəvilərdə pislənilir. Dövlətin atributları müqəddəsdir və hər bir vətəndaş bu atributlara müqəddəslik prizmasından yanaşmalıdır. Yəni bunlar bir qrup adamlardır ki, xaricdə sığınacaq alıblar və xarici ölkələrin vətəndaşlığını qəbul ediblər. Həmin o şəxslər də xarici ölkənin vətəndaşlığını qəbul edərkən, o ölkələrdə yaşam haqqı alarkən, öz üzərilərinə müəyyən öhdəliklər götürüblər. İndi isə onlar müəyyən dairələrin əlində alətdirlər. Azərbaycanda siyasi mübarizə prinsipləri qorunub və bundan sonra da qorunmalıdır. Onların yanaşmaları, baxışları, siyasi mübarizəyə gətirmək istədikləri metodlar ciddi qəbul olunmamalı və bütün müstəvilərdə, o cümlədən, mətbuat müstəvisində və ictimaiyyət nümayəndələri arasında pislənməlidir. Biz görürük ki, onların bu cür hərəkətlərə əl atmaları pislənilir də, hətta konstruktiv müxalifət düşərgəsindən də həmin şəxslərin bu çağırışlarına mənfi reaksiyalar var.

### “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri, QHT.az saytının baş redaktoru Cəsarət Hüseynzadə: “Radikal müxalifət hesab edilən qüvvələrin arasında böyük uçurum var”



- Çox təəssüf edirik ki, siyasi mübarizə üsullarında bəzi müxalifət nümayəndələri əxlaqi dəyərlərə məhəl qoymadan hərəkət edirlər. Sosial şəbəkələrin nə qədər müsbət xüsusiyyətlərinin olmasına baxmayaraq, belə insanların əxlaqi dəyərlərə sığmayan fikirlərinin yayılmasına da imkan yarandığı kimi, mənfi xüsusiyyətləri də var. Ümumilikdə, hər insan davranışları və fikirləri ilə özünü ifadə edir. Bəzi müxalifət nümayəndələri də sosial şəbəkələrdə etdiyi bu tip “çağırışları”ilə hansı təfəkkürə sahib olduqların açıq - aydın ifadə edir. Bu gün Azərbaycan hüquqi dövlətdir və bütün məsələlər qanunla tənzimlənir. Mitinq keçirmək istəyən partiya və təşkilatlar üçün də imkanlar yaradılıb. “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu mövcuddur. Qanunvericiliyin tələbləri əsasında insanların sərbəst toplaşmaq və ifadə azadlığı təmin olunub. Dövlət tərəfindən də bu hüququn həyata keçirilməsinə şərait yaradılır. Eyni zamanda, mitinqdə iştirak edənlərin və ətraf ərazilərdə olan insanların təhlükəsizliyi təmin olunur. Azərbaycan xalqının mütləq əksəriyyəti isə stabillik və davamlı inkişafın tərəfdarıdır. Bu baxımdan, insanlar hər hansı məsələlərin müzakirəsini və təkliflərin verilməsini daha sivil formada aparır və dövlətimizin inkişafına öz töhfələrini verirlər. Mitinq isə, bir daha onu sübut etdi ki, özlərini radikal müxalifət hesab edən qüvvələrin arasında böyük uçurum var və onlar bir-birilərini qəbul etmirlər. Mitinqdən öncə, “REAL” hərəkatının mitinqlə bağlı səsləndirdiyi ittihamlar, eyni zamanda, mitinqdə partiya üzvlərinin digər partiya rəhbərlərinin çıxışları zamanı sərgilədiyi münasibət buna əyani sübutdur. Sadəcə, bu partiyaların xarici havadarlarının təzyiqi ilə onlar birgə mitinq keçirmək məcburiyyətində qaldılar.

**GÜLYANƏ**

# YAP Şahbuz rayon təşkilatının yaranmasının 25 illiyi qeyd olunub

*Yeni Azərbaycan Partiyasının (YAP) Şahbuz rayon təşkilatı 1993-cü il martın 13-də yaradılıb. Həmin gün təşkilatın I təsis konfransı keçirilib. Konfransda partiyanın yaradıcısı Ulu Öndər Heydər Əliyevin iştirak etməsi tarixi hadisə kimi bu gün də yaddaşlarda yaşayır.*



AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Şahbuz rayon təşkilatının yaranmasının 25 illiyi münasibətilə keçirilən tədbirdə təşkilatın sədri Rizvan Məmmədov deyib. Rizvan Məmmədov rayon təşkilatı tərəfindən ötən illər ərzində keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev isə çıxışında vurğulayıb ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan abadlıq-quruculuq tədbirləri bu gün muxtar respublikada da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun göstərdiyi diqqət və qayğı nəticəsində ötən illərdə Şahbuz rayonunda icra nümayəndəlikləri, təhsil, mədəniyyət, səhiyyə, Yeni Azərbaycan Partiyası ərazi təşkilatı, bələdiyyə, baytarlıq, rabitə və poçt bölmələri üçün yeni binalar tikilib, müasir iş şəraiti yaradılıb, Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu əsaslı şəkildə yenidən qurulub.

Qeyd olunub ki, bu gün yaranmasının 25 illiyini qeyd edən YAP Şahbuz rayon təşkilatı bundan sonra da partiyanın sıralarının genişləndirilməsinə diqqəti artıracaq.

"Ötən illər ərzində Yeni Azərbaycan Partiyası çox mühüm nailiyyətlərə imza atıb. Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olmasında, geniş və çoxşaxəli islahatların həyata keçirilməsində, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin ardıcıl olaraq davam etdirilməsində Yeni Azərbaycan Partiyasının özünəməxsus yeri və rolu var. Yarandığı gündən partiya dövlətçilik mövqeyində dayanıb və bu gün partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə fəaliyyətini qətiyyətlə davam etdirir", - deyən YAP Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun rəhbərliyi ilə ötən dövrdə qədim diyarda geniş miqyaslı quruculuq tədbirləri həyata keçirilib. Bu quruculuq və modernləşmədən pay alan Şahbuz rayonu da qısa zamanda bütün sahələrdə inkişaf və tərəqqiyə qovuşub. Fərəhli haldır ki, Yeni Azərbaycan Partiyası Şahbuz rayon təşkilatının sıraları ildən-ilə genişlənir və partiya üzvləri quruculuq tədbirlərində fəal iştirak edir, Ulu Öndər Heydər Əliyev ideologiyasının həyata keçirilməsinə öz töhfələrini verirlər.

Tədbirdə YAP Şahbuz rayon təşkilatı Gənclər Birliyinin sədri Vüqar Muradovun, birliyin üzvü Aytac Eylazovanın və Şahbuz şəhər 1 saylı ərazi ilk partiya təşkilatının sədri, şura üzvü Sədaqət İsmayılovanın da çıxışları dinlənilib. Sonda rayon təşkilatının yaradıcılarından olan veteran partiya üzvlərinə xatirə hədiyyələri verilib.

# SOCAR: Yeraltı qaz anbarlarındakı qazın həcmi 3 milyard kubmetrə çatdırılacaq



Payıza kimi yeraltı qaz anbarlarındakı qazın həcmi təqribən 3 milyard kubmetrə çatdırılacaq. Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında SOCAR-ın ictimaiyyətlə əlaqələr üzrə rəsmisi İbrahim Əhmədov deyib.

"Qaz anbarları hər bir ölkə üçün enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. Hesab olunur ki, ölkədə qaz anbarlarının həcmi ümumi ölkədaxili istehlakın 20 faizdən aşağı olmamalıdır. Bəzi ölkələr öz qaz anbarlarını həmin minimum həddə çatdırmağa çalışırlar. Azərbaycanda isə qaz anbarlarının həcmi 3,5 milyard kubmetr civarındadır, bu da ölkənin ümumi təbii qaz tələbatının 30-33 faizini təşkil edir. Azərbaycanın iki böyük yeraltı qaz anbarı var. Qaz anbarları əsasən ilin isti çağında doldurulur. Yaz-yay fəslində qışdan qalan qalığın üstünə əlavə qaz həcmləri vurulur və növbəti qış aylarında istehlakçılara verilir. Ötən il Qaradağ yeraltı qaz anbarına 1,145 milyard kubmetr, Qalmaz anbarına isə 792 milyon kubmetr civarında əlavə təbii qaz həcmi vurulub", - deyə SOCAR-ın rəsmisi bildirib.

O qeyd edib ki, qaz anbarlarının tutumu ölkənin daxili ehtiyacına tələb olunan həcmdən artıq olanda izafi anbar tutumu idxal-ixrac əməliyyatları üçün istifadə oluna bilər. Beləliklə, Azərbaycanın geniş qaz anbarlarına malik olması beynəlxalq ticarət əməliyyatlarında da rəqabət üstünlüyü yaradır. Belə olan halda yay aylarında üçüncü tərəflərdən əlavə qaz alınır və tələbatın yüksək olduğu qış aylarında daha münasib şərtlərlə ixrac olunur.

"SOCAR Azərbaycanda öz imkanları ilə hasil etdiyi təbii qazın hamısını məhz daxili tələbatın qarşılanması üçün ölkədaxili qurumlara - "Azərenerji" ASC və "Azəriqaz" İB-yə ötürür. Qaz anbarlarının izafi həcmindən isə kommersiya məqsədilə istifadə edilir. Üçüncü tərəflərdən əlavə qaz həcmləri alınır. İdxal olunan qaz əsasən tələbatın yüksək olduğu qış aylarında ixrac edilir. Beləliklə, şirkət özünün çıxardığı təbii qazın hamısını ölkə daxilinə yönləndirdiyinə baxmayaraq, üçüncü tərəflərlə ticarət əməliyyatlarını həyata keçirir, bunun sayəsində ölkəyə əlavə gəlir qazandırır və strateji bazarlarda öz mövqeyini təmin edir", - deyə o bildirib.

İ.Əhmədov deyib ki, hazırda SOCAR Qaradağ və Qalmaz yeraltı qaz anbarlarının genişləndirilməsini həyata keçirir. Yaxın illərdə həmin anbarların həcminin 5 milyard kubmetrə çatdırılması hədəflənir. Qaz anbarlarının genişləndirilməsi beynəlxalq kommersiya əməliyyatları baxımından əhəmiyyət kəsb edir. Gələcəkdə ölkədə təbii qazın hasilatı ilə yanaşı, tələbatın da artacağını nəzərə alsaq, aydın olur ki, qaz anbarlarının genişləndirilməsi həm də ölkənin enerji təhlükəsizliyi baxımından vacibdir: "Bu ilin payızına kimi qaz anbarlarına əlavə qaz vurulandan sonra anbarlarda 2,9 milyard kubmetr civarında təbii qaz yığılacaq, bu da əvvəlki ilin göstəricisi ilə müqayisədə 10 faiz artım təşkil edəcək".

# "ArmenianReport": "Ermənistan ordusunun acınacaqlı vəziyyəti göz qabağındadır"



Xoş təsəvvür yaradan arzularla ordu-xalq münasibətlərini bərpa etmək mümkün deyil. Bugünkü mənzərəyə baxdıqda görmək olur ki, Ermənistan ordusundakı korrupsiya halları bu münasibətlərin qurulması yolunda böyük səddir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın "ArmenianReport" saytının ölkənin müdafiə naziri Vigen Sarkisyanın orduda islahatların aparılması ilə bağlı söylədikləri əsasında yaydığı məqalədə əksini tapıb. Ermənistanın müdafiə naziri qeyd edib ki, silahlı qüvvələrin modernləşməsi və islahatlar proqramı çərçivəsində ordu-xalq anlayışı tətbiq olunmalıdır.

Sayt isə nazirin fikrini şərh edərək bildirib ki, bu gün Ermənistan ordusunda islahatlar kosmetik xarakter daşıyır. Vigen Sarkisyanın söylədiyinin əksinə olaraq, heç bir köklü iş aparılmır. Ordu ilə ictimaiyyət arasında münasibətlərin yoluna qoyulması üçün islahatlar şəffaf şəkildə həyata keçirilməlidir. Silahlı qüvvələrin modernləşməsi üçün böyük vəsaitin xərcləndiyinin söylənməsinə baxmayaraq, ordunun acınacaqlı vəziyyəti göz qabağındadır.

Yazıda, həmçinin qeyd olunur ki, Ermənistan ordusundakı korrupsiya və özbaşınalıq nazirin dediyi "islahatlar" fonunda yüksək templə artır. İslahatların reallaşdırılması üçün qanunverici baza da yoxdur. Bu istiqamətdə Ermənistan parlamentində heç bir təklif səsləndirilməyib. Orduda problemlər gündən-günə artır. Bu problemlərdən də daha çox cəmiyyətin yoxsul təbəqəsi əziyyət çəkir. Təmas xəttində yoxsul insanların övladları ölür. Əsgərlər komandirlərin və özlərindən rütbəcə yüksək olanların pis davranışları ilə üz-üzə qalırlar. Bütün bunlar sosial müzakirələrin aparılmasını qeyri-mümkün edir. Müdafiə naziri Vigen Sarkisyanın səsləndirdiyi "xalq-ordu" ifadəsi isə yalnız qulağa xoş gələn bir arzudur.

# Mart soyqırımı

## *Ombudsman və AMEA-nın Tarix İnstitutu tərəfindən 1918-ci il - Azərbaycanlıların Soyqırımının 100-cü ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirilib*



***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili və Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə təşkilatçılığı ilə 1918-ci il - Azərbaycanlıların Soyqırımının 100-cü ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.***

İlk öncə, 31 Mart Soyqırımı qurbanlarının, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Konfransda Ombudsman Elmira Süleymanova giriş sözü ilə çıxış edərək, xalqımızın tarixinə yazılmış ən qanlı hadisələrdən, insanlıq əleyhinə dəhşətli cinayətlərdən olan, erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı törədilmiş 1918-ci ilin soyqırımı haqqında ətraflı məlumat verib. O, erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, müvafiq tədbirlər planının təsdiq edildiyini və bu istiqamətdə mühüm işlər həyata keçirildiyini, silsilə konfransların və tədbirlərin təşkil olunduğunu vurğulayıb.

Ombudsman insan hüquqları amilinə diqqəti yönəldərək bildirib ki, 1918-ci ilin mart-aprel aylarında törədilən bu kütləvi insan qırğını genosid faktıdır və insanlığa qarşı ən ağır cinayətlərdəndir. Beynəlxalq hüquqa görə, soyqırımı ən ağır beynəlxalq cinayət olmaqla, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn təcavüz, insanlıq əleyhinə, müharibə və beynəlxalq terrorizm kimi cinayətlər qrupuna aid edilir. İnsanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və beynəlxalq sənədlərdə göstərilən əməllərdən hər biri 1918-ci ilin mart-aprel hadisələri zamanı ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmişdir və hüquqi baxımdan soyqırımı kimi qiymətləndirilməlidir.

E.Süleymanova iştirak etdiyi çoxsaylı beynəlxalq kolnfranslardakı, digər tədbirlərdəki çıxışlarında soyqırımlar barədə ətraflı məlumatlar verdiyini, orada Azərbaycan həqiqətləri ilə bağlı çoxsaylı kitablarını və nəşrlərini iştirakçılara təqdim etdiyini söyləyib. AMEA-nın Tarix İnstitutunun direktoru, akademik, millət vəkili Yaqub Mahmudov bu konfransın keçirilməsi üçün təşəbbüs göstərdiyinə görə Ombudsmana minnətdarlığını bildirib, Müvəkkilin insan hüquqları sahəsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında səmərəli fəaliyyət göstərdiyini yüksək dəyərləndirib. O, Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı mövzusunda geniş məruzə edib, bu qanlı hadisələrin tarixi, səbəbləri, cərəyan etməsi, bununla əlaqədar olaraq tarixi faktların, zəruri sənədlərin tapılması və ortaya çıxarılması, kitabların dərc edilməsi, habelə, əsrlər boyu ölkəmizə qarşı erməni təcavüzünün məqsədi və tarixi, Çar Rusiyasının Azərbaycanla bağlı köçürmə siyasəti və XIX əsrin əvvəllərindən başlayaraq, tarixi torpaqlarımız olan Qarabağa, Naxçıvana, Zəngəzura, İrəvan quberniyasına və digər bölgələrə minlərlə erməni ailələrinin köçürülməsi, İrəvan xanlığının tarixi barədə ətraflı məlumat verib.

Y.Mahmudov Ümummilli Liderimiz Heydər Əliyevin xalqımızın tarixinə, tarixi həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirdiyini söyləyib.

Milli Məclisin deputatı Elman Nəsirov konfransa görə təşkilatçılara minnətdarlığını bildirib, azərbaycanlılara qarşı ermənilərin tarixən yürütdüyü soyqırımı siyasəti mövzusunda məruzə edib. O, 1918-ci ildə azərbaycanlıların soyqırımının motivləri barədə danışıb, eyni zamanda, Xocalı soyqırımına həm də beynəlxalq terrorizm kimi qiymət verilməsinin vacibliyini bildirib.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev azərbaycanlılara qarşı soyqırım cinayətləri, Xarici İşlər Nazirliyi İnformasiya və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Cavanşir Məmmədov 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü, AMEA-nın Tarix İnstitutunun alimləri Cəbi Bəhramov, Kamran İsmayılov, Natiq Məmmədzadə, İlqar Niftəliyev və Güntəkin Nəcəfli böyük dövlətlərin Bakı nefti uğrunda mübarizəsi və azərbaycanlıların soyqırımı, 1918-1920-ci illərdə Zəngəzur və Naxçıvan bölgəsində, Qarabağda, İrəvan Quberniyasında azərbaycanlıların soyqırımı, habelə, Azərbaycan xalqına qarşı soyqırımı yeni arxiv sənədlərində mövzularında məruzələri diqqətə çatdırıblar.

Konfrans səmərəli müzakirələr şəraitində davam edib, iştirakçılar mövzu ilə bağlı fikir və mülahizələrini bildiriblər

**İNAM**




# Ölkəmizdə turistlərə göstərilən xidmətin çeşidi və səviyyəsi ildən-ilə artır

Ölkəmizdə turizm sahəsinin hərtərəfli inkişafına yönəlmiş dövlət siyasəti son illərdə öz bəhrəsini verməkdədir. Turistlərin rahatlığı üçün müasir infrastrukturun yaradılması, xidmət keyfiyyətinin yüksəldilməsi, həmçinin sadələşdirilmiş viza sisteminin tətbiqi ildən-ilə ölkəmizə gələn xarici turistlərin sayının artması ilə nəticələnib. Turist axınının artması, təbii olaraq, ölkəyə daxil olan vəsaitin də yüksəlməsinə müsbət təsir edir.

Azərbaycan Mərkəzi Bankının (AMB) təqdim etdiyi məlumatlara əsasən, respublikamıza gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatları 2017-ci ildə 1 milyard manatdan çox olub. Bu da 2016-cı illə müqayisədə 70 faiz artım deməkdir.

Ölkəmizə gələn xarici vətəndaşların bank kartları üzrə əməliyyatlarının həcminə görə 2016-cı ildə iyun, dekabr və noyabr ayları seçilsə də, 2017-ci ildə avqust, iyul və sentyabr ayları daha çox fərqlənib. Təsadüfi deyil ki, 2017-ci ildə ölkəmizi ziyarət edənlərin də böyük hissəsi məhz iyul, avqust və sentyabr aylarında gələnlərdir. Azərbaycanda fəaliyyət göstərən turizm şirkətlərinin sayı da son illər ərzində xeyli artıb. Turizm sahəsinin inkişafı və turizm xidmətlərinə artan tələbatla əlaqədar ötən ildə bu cür müəssisələrin sayı 100 faizdən çox artaraq 633-ə çatıb.

Mədəniyyət və Turizm Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ölkəmizdə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli yerləşdirmə vasitələrinin sayı isə 2017-ci ildə 686 olub. Dünyanın müxtəlif ölkələrində turizmin inkişaf tempi, ölkəyə gələn turist axını 5-7 faiz arasında dəyişir. Ötən il Azərbaycana gələn xarici turistlərin sayı isə 20 faiz artaraq indiyədək qeydə alınan ən yüksək göstəriciyə - 2,7 milyon nəfərə çatıb. Belə yüksək artımın əldə olunmasında 2017-ci ildə ölkəmizdə turizm sahəsində həyata keçirilən tədbirlərin mühüm rolu olub. Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi hesabata əsasən, 2017-ci ildə ölkəmizə gələn xarici vətəndaşların sayı 2016-cı illə müqayisədə 449 min 215 nəfər (20 faiz) artaraq 2 milyon 691min 998 nəfər olub.

Ölkəyə gələn xarici vətəndaşlardan 853 min 82-si Rusiya, 537 min 710-u Gürcüstan, 362 min 597-si İran, 301min 553-ü Türkiyə, 102 min 360-ı Birləşmiş Ərəb Əmirlikləri, 62 min 454-ü İraq, 57 min 756-sı Ukrayna, 33 min 273-ü Səudiyyə Ərəbistanı, 381min 213-ü isə digər ölkələrin vətəndaşlarıdır.

Mövcud göstəricilərə əsasən, mart, iyun, iyul, avqust və sentyabr ayları gələn xarici ziyarətçilərin sayı baxımından daha aktiv aylar olub. Digər tərəfdən, yanvar, fevral və aprel ayları daha aşağı göstəricilərlə yadda qalıb. 2017-ci ildə ölkəmizdə turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı 54 min 600, bu sahə üzrə qoyulan investisiyaların həcmi 91 milyon manat, iaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı 18 min 700, sözügedən obyektlərdə oturacaq yerlərinin sayı isə 711 mini ötüb.

Mədəniyyət və Turizm Nazirliyi ölkəmizə gələn xarici turistlərə göstərilən xidmətin səviyyəsinin daha da artırılmasını hər zaman diqqət mərkəzində saxlayır. Turistlərə göstərilən xidmətlərin çeşidinin və səviyyəsinin artırılması istiqamətində müvafiq işlər həyata keçirilir.

# Muğam Mərkəzində Vaqif Mustafazadənin xatirəsi anılacaq

Martın 15-də Beynəlxalq Muğam Mərkəzində bəstəkar, pianoçu, caz-muğam üslubunun yaradıcısı, Əməkdar İncəsənət Xadimi Vaqif Mustafazadənin doğum günü ərəfəsində görkəmli musiqiçinin yaradıcılığına həsr olunmuş konsert keçiriləcək. Muğam Mərkəzindən AZƏRTAC-a bildirilib ki, konsertdə V.Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin müəllim və şagirdlərinin çıxışı nəzərdə tutulur. Biletləri şəhərimizin kassalarından, "ASAN xidmət" mərkəzlərindən və iticket.az saytından əldə etmək olar.

Qeyd edək ki, Vaqif Mustafazadə fortepiano və simfonik orkestr üçün konsertin, "Muğam" simfoniyasının (tamamlanmamış), bir sıra caz kompozisiyalarının və pyeslərin müəllifi kimi tanınır. O, Azərbaycan caz musiqisinin banisi və yeni caz fikrinin (devizinin) müəllifidir. O, ilk dəfə Azərbaycan musiqisinin, muğamın klassik Amerika caz musiqisi ilə sintezini yaradıb.

# Sürix protokollarından imtina: Ermənistanın növbəti məkrli hiyləsi

***Artıq keçmiş prezident adlandırılan Serj Sarkisyan mart ayının 1-də Təhlükəsizlik Şurasının iclasında 2009-cu ildə Sürixdə Türkiyə ilə imzalanan protokollardan imtina etdiyini söyləyib. Həmin sənədlərdə Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin yaradılması və tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsi prinsipləri ümumi şəkildə əks olunmuşdu. İrəvan təntənəli surətdə bəyan edib ki, məhz o, həmin protokolları lüzumsuz sayır. Ermənistandakı siyasi və analitik dairələr bu hadisəni onlara məxsus dar düşüncə ilə "təhlil" etməkdədirlər. Onlar az qala S.Sarkisyanın bu addımını qəhrəmanlıq kimi qələmə verirlər. Real olaraq isə növbəti dəfə Ermənistan rəhbərliyinin və onun təbliğatçılarının nə qədər aciz və həqiqətdən uzaq olduqları məlum oldu. Bunu regiondakı vəziyyətlə az da olsa tanış olanlar çox yaxşı bilirlər. Biz məsələnin müəyyən aspektlərini təhlil etməyə qərar verdik.***



## Təcavüzkarın "əməkdaşlıq prinsipləri", yoxsa tərsinə sülhpərvərin göz yaşları

Ermənistanın siyasi rəhbərlərinin məntiqdən və ədalətdən kənar addımlarına artıq hamı alışıb. Məhdud siyasi təfəkkürlə müstəqillik xəyalında olan zavallılar hansı gülünc vəziyyətə düşdüklərinin fərqində belə deyillər. Onlar qəfəsdə oturub, dünyanın görmədiyi bir mövqedən ağıllarına və xəstə başlarına nə gəldi deməyi dövlət maraqları, siyasi uzaqgörənlik, yaxud sarsılmaz siyasi iradə kimi qələmə verməyə çalışırlar. Buna məlum türk-erməni protokolları adlanan sənəd ətrafında İrəvanın apardığı ucuz və kimsə üçün əhəmiyyəti olmayan şou da dəlalət edir.

Əvvəlcə həmin sənədin qısa tarixçəsi haqqında. 2009-cu ildə İsveçrənin Sürix şəhərində başlıca olaraq Qərb dövlətlərinin israrı ilə Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin yaradılmasını və ikitərəfli əlaqələrin inkişafını nəzərdə tutan iki sənəd imzalandı. Onlardan biri "Ermənistan Respublikası və Türkiyə Respublikası arasında diplomatik münasibətlərin yaradılması haqqında" Protokol, digəri isə "Ermənistan Respublikası və Türkiyə Respublikası arasında ikitərəfli əlaqələrin inkişafı haqqında" Protokol adlanırdı.

Birinci sənədin 3, 4, 5 və 8-ci bəndlərində müvafiq olaraq vurğulanır: "bərabərlik, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, başqa dövlətlərin daxili işlərinə qarışmama prinsiplərinə hörmət etmək" (3-cü bənd), "güc tətbiqindən və ya güc tətbiqi hədəsindən çəkinmək, mübahisələrin sülh yolu ilə həlli, insanın təməl haqq və hüquqlarına hörmət etmək" (4-cü bənd), "beynəlxalq hüququn uyğun müqavilələri əsasında iki ölkə arasında ümumi sərhədin mövcudluğunu təsdiq etmək" (5-ci bənd) və "terrorizm, zor tətbiqi və radikalizmin bütün formalarını qınamaqla və bu kimi hərəkətlərə qarşı dözümlülükdən və onları stimullaşdırmaqdan çəkinməklə onlarla mübarizədə əməkdaşlıq etmək" (8-ci bənd) (bax: Protokol ob ustanovlenii diplomatiçeskix otnoşeniy mejdu Respublikoy Armenə i Tureükoy Respublikoy / "Kavkazskiy Uzel", 11 dekabr 2009).

İkinci sənəddə isə yazılıb: "iki dövlətin regionda sabitlik və təhlükəsizlikdə əməkdaşlıqda ümumi məqsəd daşıdıqlarını nəzərə alaraq..." (5-ci bənd), "beynəlxalq hüququn norma və qaydaları əsasında regional, millətlərarası münaqişələrin sülh yolu ilə həllinə öz sədaqətliliyini təsdiq edərək..." (6-cı bənd), "beynəlxalq ictimaiyyətin terrorizm, millətlərüstü cinayətkarlıq, narkotiklər və silahların qanunsuz dövriyyəsi ilə mübarizəsində ifadə olunan regionda və dünyada sabitlik və təhlükəsizliyə olan təhdidlərə qarşı yönəlmiş hərəkətlərinə aktiv dəstək vermək" (7-ci bənd) (bax: Protokol o razvitii dvustoronnix otnoşeniy mejdu Respublikoy Armenə i Tureükoy Respublikoy / "Kavkazskiy Uzel", 11 dekabr 2009).

Ermənilər və onların havadarları arasında vicdanı və ədalət hissi olanları varsa, yuxarıda vurğulanan bəndlərdən hansına İrəvanın əməl etdiyini, yaxud buna hazır olduğunu təsdiq etsin! İllah ki, imkansızdır! Çünki nə 2009-cu ilə qədər, nə də ondan sonra Ermənistan müstəqil dövlət ola bilmədi. O, daim kənardan təhrik edilərək, qonşularına qarşı qərəzli və təcavüzkar mövqe tutdu. Xüsusilə Azərbaycan və Türkiyəyə münasibətdə zərrə qədər də ağıl, ədalətlilik və rasionallıq nümayiş etdirmədi. Əksinə, həmişə danışıqları dalana dirəməyə çalışdı, qonşu ölkənin ərazi bütövlünü pozduğunu, azərbaycanlıların hüquqlarını şovinistcəsinə tapdaladığını və zəbt etdiyi torpaqlardan rədd olmaq zərurətini qəbul etmədi.

## Günahkar sülhdən qaçır: Ermənistan destruktivliyində qalır

Keçən müddət ərzində Ermənistanın siyasi leksikonu qondarma "soyqırımı", azərbaycanlıların vəhşi olması, regiondakı hər bir ölkənin Ermənistana ərazi və mədəniyyət borcu olduğunu ifadə edən sözcüklərlə dolu olub. Ermənistan rəhbərliyi nəinki regional təhlükəsizliyə töhfə vermədi, həm də Rusiyanın müasir raketlərinə güvənərək, onlardan bəzilərini yalvarıb öz ərazisində yerləşdirməklə Azərbaycan və Türkiyəyə hədə gəlməyə çalışıb. Son olaraq da çox gülünc və bəsit bir fikir ortaya atıblar. Bir sıra erməni ekspertlər Vladimir Putinin yeni silahlarından Ermənistanda yerləşdirməyin lazım gəldiyini vurğulayırlar.

Diqqət edin - daim başqasının ərazisinə göz tikmək, yeni silahlar alıb onları vurmaq, regionda özündən başqa kimsənin marağını və haqqını tanımamaq kimi barbar duyğularla mövcud olmağa cəhd edən bir sürüdən bəhs edirik! Bələlərinə nə Sürix protokolları, nə Helsinki Xartiyası, nə Vyana Konvensiyası! Bunlar erməni rəhbərliyi üçün çox cansıxıcı və məzmunsuz bir kağız parçasıdır. Çünki müstəqil deyillər, dövlətin nə olduğunu tam həcmdə nə anlamayıblar, nə də yaşaya bilirlər! Ona-buna ərazi iddialarından, cavab aldıqda isə göz yaşı tökməkdən əsla utanmayan bir yığınaqdırlar!

İndi də xatırladılan protokollarla bağlı hoqqabazlıq edirlər. Guya Türkiyənin günahı ucbatından həmin sənədlər artıq "ölüdürlər". Buna görə də "Ermənistanın dövlət maraqlarını rəhbər tutaraq" Serj Sarkisyan prezidentliyinin son günlərində onları ləğv etdi. Dərhal da Ermənistanın "siyasi ekspertləri", S.Sarkisyanı lider sayan ruporçuları, "türkoloqları" bu addımın "dərin siyasi, geosiyasi və diplomatik" analizini verməyə başladılar. Onlar İrəvanın vaxtında və çox doğru addım atdığından dəm vururlar. Lakin...

Reallıq tamamilə başqa bir mənzərəni ortaya qoyur. Öncə, onu qeyd edək ki, Sürix protokolları Azərbaycanın ərazi bütövlüyü təmin edilmədən qətiyyən reallaşa bilməzdi. Bu cür sənəd Türkiyə deyil, İran, Rusiya, yaxud Gürcüstanla Ermənistan arasında belə imzalansaydı, həyata keçməsi mümkün deyildi. Səbəbi odur ki, söhbət regional sabitlikdən, əməkdaşlıqdan, terrorla mübarizədən gedirsə, bölgədəki münaqişələrin həlli ilkin şərtdir. Bunlara Dağlıq Qarabağ ilk sırada daxildir. Sağlam düşüncəli hər kəsə aydındır ki, bir məkanda əməkdaşlıq yalnız qarşılıqlı hörmət və anlaşma şəraitində, orada münaqişələrin olmadığında alına bilər. Qalan digər hallarda mahiyyətcə süni və müvəqqəti olur.

Ermənilər isə ədaləti də, haqqı da, mədəniliyi də öz maraqları çərçivəsindən kənarda görmək iqtidarında deyildirlər. Yazıqlar! Budur, onların dövri nəşrlərində "Ankara S.Sarkisyanın protokollarla bağlı addımlarına reaksiya verмədi", deyə növbəti şikayətlərinə başlayıblar. Yəqin gözləyirlərmiş ki, Ankara və Bakı "aman, qoymayın, böyük erməni lider Sürix protokollarından imtina etdi, evimiz yıxıldı", deyə həyəcan təbili çalacaqlar. Sən kimsən, Serj Sarkisyan?! Azərbaycan torpaqlarının işğalında, insanların terror yolu ilə qətlində birbaşa iştirak etmiş, əli qana batmış, Xocalı soyqırımının törədilməsində əli olmuş birisi, müharibə cəlladı! Sən və sənin kimi heç bir adamla razılaşmaq mümkün deyil! Bunu öz hərəkətlərinlə dəfələrlə sübut etmisən!

Təbii ki, İrəvanın Sürix protokollarından imtina etməsi bir daha Ermənistan rəhbərliyinin qeyri-konstruktiv, əməkdaşlığa deyil, savaşa uyğun mövqe tutduğunu göstərir. Aydın görünür ki, Ermənistan Azərbaycanın işğal altındakı torpaqlarından çəkilmək fikrində deyil və ya onu buna təhrik edirlər. Ermənistanın havadarları regionda gərginliyi yüksəltməkdə qərarlıdırlar. Görünür, İrəvanın bu addımında bir sıra böyük dövlətlərin vəziyyəti daha da qarışdırmaq kimi niyyətləri də rolunu oynayıb. Yaxın Şərqdə və ona yaxın regionlarda geosiyasi mənzərənin yüksək gərginlik səviyyəsinə çatdığı bir zamanda vassal bir ölkənin bu hərəkəti yalnız ziyanlığa, şərə xidmət edir.

Əslində, nə Ankara, nə Bakı üçün bu hadisə önəm daşımır. Ermənistan rəhbərliyinin havaya atdığı növbəti boş güllədir. Çünki Azərbaycan və Türkiyə üçün daha əhəmiyyətlisi işğal olunmuş torpaqların nə olursa-olsun azad edilməsi və sülhün bərqərar olmasıdır. Bu prosesdə Ermənistan iştirak etmək istəmirsə, özünün günahıdır. Bütün hallarda Bakı və Ankara ədalətdən, öz haqqını tələb etməkdən və suveren qərarlar verməkdən bir addım da kənara çıxmayacaqlar. Əgər ermənilər Qərbdə müəyyən qüvvələrin Türkiyəyə qarşı neqativ mövqe tutmasına arxayın olurlarsa, bu da əhəmiyyətsiz hissə qapılmaqdır. Türkiyə bütün bunların hər birinin öhdəsindən gələ bilən böyük və güclü dövlətdir. Vaxt gələcək, ermənilər Türkiyəyə uyğun sənəd imzalanması üçün yalvaracaqlar! Lakin heç kəs unutmasın: Ankaraya gedən barış yolu Bakıdan keçir!

**Newtimes.az**

# Ermənilərin törətdikləri ağır cinayətlərin izi - 31 Mart SOYQIRIMI

***Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələr 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlarla xarakterizə olunur. Həmin hadisədən 100 il ötsə də, azğınlaşan erməni millətçilərinin qeyri-insani əməlləri nəticəsində Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə törədilən kütləvi qətllər, talanlar və etnik təmizləmələr tarixin yaddaşından silinməyib.***






1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlayıb. Stepan Şaumyanın etirafına görə, dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin altı min silahlı əsgəri, eyni zamanda, "Daşnaksütyun" partiyasının 3-4 minlik silahlı dəstəsi iştirak edib. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edərək, uşaqdan-böyüyədək hamını qətlə yetirdilər. Mənbələrdə göstərilir ki, dəhşətli günlərin şahidi olan Kulner familiyalı bir alman ermənilərin müsəlman məhəllələrinə soxularaq hər kəsi öldürdüyünü, qılıncla parçaladığını və süngü ilə dəlmə-deşik etdiklərini yazıb. O, qeyd edib ki, qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış və cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər. Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş və qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyiti tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da sənədlərin dili ilə qeydə alınıb. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün isə ermənilər şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar yerləşdirmişdilər.

### SOYQIRIMIN TƏŞKİLİNDƏ ERMƏNİ MİLLİ ŞURASININ VƏ "DAŞNAKSÜTYUN" PARTİYASININ ROLU SƏNƏDLƏRİN DİLİ İLƏ

Mart qırğınları zamanı şəhərin geniş sahələrə malik olan bir çox binaları - teatrlar, kinoteatrlar, məktəblər, polis məntəqələri, Şəhər Dumasının ictimai binası, vağzal və digər binalar, hətta hamamlar da minlərlə bədbəxt, qərət edilmiş, öz yaxınlarının vəhşicəsinə qətli faciəsini yaşamış azərbaycanlıların, əsasən, qadın, uşaq və qocaların gətirildiyi və günlərlə, bir çox hallarda ac və susuz saxlanıldığı həbsxanalara çevrilmişdi. Müsəlmanların kütləvi surətdə əsir alınmasında iştirak etmiş bəzi erməni xadimləri sonradan bu əməli guya dinc müsəlman vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədi ilə görülmüş zəruri tədbir kimi izah etməyə çalışıblar. Müsəlmanların əsir alınması silahlı erməni quldur dəstələri tərəfindən zorla həyata keçirilmiş, təhqirlərlə, bir çox hallarda isə qətllərlə müşayiət olunmuşdur. Hadisələrin şahidlərinin söylədiklərinə görə, erməni əsgərləri müsəlman qadınların çadralarını cırır, onları hörükləri ilə bir-birinə bağlayır və başıaçıq, ayaqyalın şəhərin küçələrində gəzdirərək, yolboyu süngülərlə döyür, əsirlərin saxlandıqları yerlərə qovurdular. Erməni "ziyalıları" isə, bu zaman öz arvadlarını azərbaycanlıların "rüsvayçılığına" tamaşa etməyə gətirirdilər.

1918-ci ilin faciəli mart günlərində şəhərin müsəlman əhalisinə - iri sənayeçilərə, zavod, liman və neft mədənləri sahibkarlarından başlayaraq çoxsaylı mülki, sosial və ticarət obyektlərinin: evlər, idarə, mehmanxana, məktəb, restoran, bərbərxana, emalatxana, mağaza, anbar, dükan, tövlə və s. sahiblərinə vurulan maddi ziyanın miqyasını və dəyəri yüz milyonlarla ölçülür. Mənbələrdə qeyd olunur ki, yalnız məlum faktlar əsasında bu rəqəm 400 000 000 göstərilirdi. Yandırılan və dağıdılan binalar arasında azərbaycanlıların mədəni-ictimai və dini mərkəzini təcəssüm etdirən "İsmailiyyə" - Müsəlman Xeyriyyə Cəmiyyətinin binası, "Kaspi" və "Açıq göz" qəzetlərinin, "Dağıstan", "İsgəndəriyyə" mehmanxanasının da binaları var idi. Müsəlmanların qaldıqları bu mehmanxana və karvansaralar orada olan insanlarla birlikdə yandırılmışdı. 31 mart SOYQIRIMIN törədilməsinin təşkilində Erməni Milli Şurasının və "Daşnaksütyun" partiyasının rolu, erməni "ziyalı və kübar təbəqələri" nümayəndələrindən tutmuş "erməni qara camaatı"na qədər iştirakı sənədlərin dili ilə qeydə alınıb. Qırğınların ilk günlərində Bakının on minlərlə müsəlman sakinləri yalnız hər hansı yolla şəhərdən çıxa bildiklərinə görə sağ qalmışdılar.

### 80 İL SONRA HADİSƏLƏRƏ ADEKVAT SİYASİ QİYMƏT VERİLDİ

1918-ci ilin martında bir sıra Bakı kəndlərinin - Məhəmmədi, Əhmədli, Balaxanı, Binəqədi, Bibi-Heybət, Hökməli, Zabrat, Sabunçu, Ramana, Xırdalan və s. sakinləri erməni silahlı dəstələrinin vəhşiliklərinin qurbanı olmuşlar.

Daşnakların azərbaycanlılara qarşı soyqırımı yalnız Bakı ilə məhdudlaşmamışdır. Qısa müddətdə Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qarsda da azərbaycanlıların qırğını törədilmişdir. 1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilimişdir. Şamaxı cümə məscidi də daxil olmaqla, əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış və əhalisi məhv edilmişdir.

Rəsmi rəqəmlərə istinad etsək, görərik ki, 1918-ci iln aprelin 29-da Gümrü yaxınlığında, əsasən, qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq, öldürülmüşdür. Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür. Bütövlükdə, bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı qətlə yetirilmiş, kəndlər isə yerlə yeksan edilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış və əhalisi məhv edilmişdir. 1920-ci ilin mayında ermənilərin və XI qırmızı ordunun iştirakı ilə Gəncədə 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdir.

O illərdə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırıldı, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alındır Yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi.

### ERMƏNİSTANIN PLANLI ŞƏKİLDƏ HƏYATA KEÇİRDİYİ SON ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ

Zaman-zaman ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi iyrənc siyasət nəticəsində xalqımız ağır işgəncələrə məruz qalmışdı. Dünyanın gözü qarşısında azərbaycanlılar 1988-ci ildən başlayaraq, Ermənistandan deportasiya olundular. 1988-ci ilin yanvarından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlandı. Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətdilər. Ermənistanın planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində, tarixən burada yaşamış 250 min azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. 1988-ci ildən başlayaraq, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən onların zorla çıxarılması planı surətdə həyata keçirildi. Məhz bu dövrdə XX əsrin ən faciəli hadisələrindən biri törədildi - Dağlıq Qarabağda 6 min nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən Sovet qoşunlarının köməyi ilə bir gecədə darmadağın edildi, 613 nəfər dinc əhali vəhşicəsinə, qəddarlıqla qətlə yetirildi, 150 nəfər itkin düşdü. Bu qanlı faciədə 1000 nəfər dinc sakin müxtəlif dərəcədə şikəst oldu, 1275 nəfər isə - qocalar, qadınlar və uşaqlar əsir aparılaraq dəhşətli təhqirlərə, zülmə və həqarətə məruz qaldı.

1988-1992-ci illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində, 20 min nəfər azərbaycanlı həlak oldu. Bütün bunlar ermənilərin xalqımızın başına gətirdiyi faciə və soyqırımıdır. Zaman dəyişsə də, ermənilərin azərbaycanlılara qarşı siyasəti dəyişməz olaraq qalır. Tarixin silinməz daş yaddaşına nəzər saldıqca, erməni məkri və hiyləsi açıq-aydın görünür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Radikallar günahlandırmaq üçün qapazaltı axtarır və Cəmil Həsənlini ittiham edirlər



***Müxalifət düşərgəsinin mitinq adlandırmaq istədiyi son şousunun rüsvayçılığından sonra radikallar bu uğursuzluğu da bir-birinin üzərinə atmaq ənənəsinə sadiq olaraq, yenə də qapazaltı axtarır. Nə ictimai dəstəyin, nə sosial sifarişin olmamasını, nə də qüsurlu fəaliyyətlərini etiraf etmək niyyətində olmayanlar budəfəki fiaskonu da kiminsə üzərinə atmaq, onu günahlandırmaq niyyətindədirlər. Öz gözündə tiri görməyənlər, həmişə olduğu kimi, başqalarının gözündə tük axtarmaqdadır.***

### “Məhsul”dakı rüsvayçılığa görə “şura” sədrinin yaxasından yapışıblar

Budəfəki uğursuzluğu da qondarma “Milli Şura”nın əldəqayırma sədri Cəmil Həsənlinin üstünə atanlar çoxluq təşkil edir və sanki bütün günahlar “şura” sədrindədir. Müsavatı da öz aksiyalarına qatanlar, nəticədə “Məhsul” stadionunda vur-tut 5-10 nəfərin yığışmasının şahidi olduğu zaman “şura” sədrinin yaxasından yapışmaq qərarına gəliblər. Çünki aksiyalarına iştirakçı toplamağı, məhz C.Həsnliyə tapşırdıqları üçün günahı onun üzərinə atmaqda özlərini haqlı hesab edirlər. “Şura” sədrinə mitinqə çağırışla bağlı sosial şəbəkələrdə təşviqat məsələləri tapşırıldığına görə, indi sorumluluğun da onun üzərində olduğu vurğulanır. C.Həsənlini yarıtmazdıqda ittiham edənlər arasında AXCP sədri də, Müsavat başqanı da, hətta “şura” üzvləri də var. Təkcə mitinqə çağırış və bununla əlaqədar təşviqat deyil, mitinqin təşkilatçılığı da, hətta yalnız Bakı yox, həm də rayonlardan insanların paytaxta, mitinqə axınını təşkil etməyi də öz üzərinə götürdüyü üçün, nəticədə “Məhsul” stadionunda qohum-əqrəbalarından başqa kimsənin olmadığının şahidi olduqları üçün hamı “şura” sədrini qınayır.

Radikalların nəzərdə tutduqları mitinqlə əlaqədar C.Həsənlinin boynuna qoyulan vəzifələri həddindən artıq çox idi və hətta bir ay bundan öncə, Avropada və Amerikada səfərdə olan “şura” sədri özü də üzərinə öhdəliklər götürmüşdü ki, mitinqin bu dəfə çoxsaylı iştirakçılarla keçirilməsinə nail olacaq. Təbii ki, bunun əksini müşahidə etdik və istər mahiyyət, istərsə də say etibarı ilə bu mitinqin əvvəlkilərdən zərrə qədər də fərqi olmadı. Əksinə, daha az iştirakçı toplaşdı və daha sönük bir aksiya keçirildi. Daha dəqiq desək, heç bu tədbir, bir növ baş tutmadı.

### “Şura” sədri qeyri-səmimilikdə, yalan vədlərlə əqidə yoldaşlarını aldatmaqda günahlandırılır

Qeyd etmək yerinə düşərdi ki, AXCP və “Milli Şura” Müsavatla birgə mitinq keçirmək qərarına gəlsə də, mitinqöncəsi Ə.Kərimli heç Müsavat başqanı A.Hacılı ilə görüşmədi. Onların arasında vasitəçi bir növ C.Həsənli idi və əsas məqsədlərindən biri də bu partiyalar və onların liderləri arasında yaranan soyuqluğu aradan qaldırmaq idi. Mitinqdən 10 gün qabaq Həsənli Hacılı ilə görüşündə də bu mitinqin ilk AXCP - “Milli Şura” -Müsavat mitinqi olduğuna görə, Ə.Kərimli ilə A.Hacılı arasındakı sədləri aradan götürəcəyini vəd etmişdi. Hətta partiyaların birgə mitinq təşkil edəcəkləri təqdirdə, Müsavatın iştirak edəcəyi halda, informasiya dəstəyi ilə budəfəki mitinq iştirakçılarının, ən azı 30-40 min nəfərdən ibarət olacağına söz verən “şura” sədri, bu mənada da, gözləntiləri doğrultmadı. Amma radikalların mitinq adlandırdıqları bu aksiyaya min nəfərdən bir az çox tərəfdaş yığıldı ki, bunlar da partiya və qurum sədrlərinin qohum-əqrəbası idi.

“Milli Şura” sədrinin bu qədər öhdəlikləri boynuna götürdüyü halda, heç bir nəticə hasil olmadığına və mitinqin çox azsaylı iştirakçı ilə alayarımçıq yekunlaşmasına görə mitinqdən bir gün sonra “Milli Şura”nın koordinasiya şurasının iclasında Oktay Güləliyev, Gültəkin Hacıbəyli və digərləri Cəmil Həsənlini yarıtmazlıqda və iş bacarmamaqda günahlandırıb. Hətta telefon danışığı ilə iclasa qatılan Müsavat başqanı Arif Hacılı “şura” sədrini qeyri-səmimilikdə, müəyyən yalan vədlərlə əqidə yoldaşlarını aldatmaqda günahlandırıb. İstər “Milli Şura” üzvləri olsun, istər AXCP sədri olsun, istərsə də Müsavat partiyası başqanı və onun üzvləri arasında C.Həsənliyə qarşı bundan sonra etibarın olacağına özünün belə zərrə qədər gümanı yoxdur. Bu səbəbdən, hər hansı tədbirin təşkilatçılığı, yaxud hər hansı bir vəzifənin bundan sonra Həsənliyə veriləcəyi heç inanılası deyil.

Elə bil ki, nə Ə.Kərimlinin, nə A.Hacılının, nə də, ümumilikdə, müxalifət düşərgəsinin bu uğursuzluqda zərrə qədər payı yoxdur və ictimai dəstəyin olmamasında sanki heç biri günahkar deyil. İllərdir siyasi səhnədə yalnız uğursuzluqlara imza atanların bu gün yaxalarını kənara çəkmələri çox gülünc görünür və bu “xəcalət mitinqi”ndə, onun rüsvayçılıqlarında hər birinin ayrıca payı görünməkdədir. Nə Kərimlinin saxtakarlığı, nə Hacılının mövqesizliyi, nə də bu destruktiv müxalifətin milli maraqlar, dövlətçilik əleyhinə xəyanətkar fəaliyyəti ictimaiyyətin diqqətindən yayına bilməz və bu səbəbdən, uğursuzluqda hər birinin ayrıca payı olan radikalların hər hansı bir uğura zərrə qədər ümidi ola bilməz.

*İnam HACIYEV*

# SATILMIŞLAR SÜLALƏSİ



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Satqın elə satqındır deyiblər. Çünki satqının nə buynuzu olur, nə də alnına yazılır ki, o, satılmışlardandır, xəyanətkardır, hətta anasının əmcəyini kəsənlərdəndir. Yəni kimsə şərəfini, namusunu pula-paraya, müəyyən şəxsi mənfəətlərinə görə satırsa, demək ki, qeyd edilən bütün ifadələr bilavasitə həmin ünsürə aiddir. İndi, xüsusilə, son vaxtlar belə bir sülalə meydana gəlib - satılmışlar sülaləsi! Bəs buraya kimlər daxildir? Əvvəlcə bu sülalənin əsas tərkibini müəyyənləşdirək və sonra da bu ünsürlərin ayrı-ayrılıqda təhlillərini aparaq...***

### Pəh-pəhçilərin “lideri”, ipli kuklası, seks-simvolu, gül üstə bülbülü, siyasi çaqqalı, qanbaşısı və məbədül-nəhəngi...

Pəh-pəhçi müxalifətçilərin “lideri” Ə.Kərimli, onun ipli kuklası C.Həsənli, pəh-pəhçilərin seks-simvolu Gültəkin Hacıbəyli, gül üstə bülbül Oktay Gülalıyev, daha çox siyasi çaqqallığı ilə seçilən Aslan İsmayılov, müsavatçıların hələ də isavatçılıqdan qurtula bilməyən qanbaşısı Arif Hacılı, qrant yeməkdən siyasi pəhriz saxlamağı bacarmayan məbədül-nəhəng Xədicə İsmayıl və daha kimlər, kimlər...

Keçək digər tərkibə, yəni Avropada “siyasi mühacir” adı altında oğr...casına dövlət maraqlarını erməni əmidayılarına satan Orduxan (əslində, Orduxanım) Teymurxan adlı siyasi xacə, yaşadığı rayonda dəfələrlə bağırsaq həkiminə müraciət edərək, yoğun bağırsağını tikdirən, ağzı yara bağlayan və nəticədə, el-obasından qovulan Məhəmməd Mirzəli adlı cinsi oriyentasiyası bəlli olan gədə, guya atasının qəbrinə paşoylandığını iddia edən, ancaq sonradan bu iyrənc planın reallaşdırılması üçün həmin yalanın ictimailəşdirilməsinə qol qoyan boynuyoğun Vidadi İsgəndərli adlı binamus, siyasi ləçər Leyla Yunus, sosial şəbəkədə dilavərlik etməkdən dili döyənək bağlamış Səid Nuri, sözün həqiqi mənasında, biqeyrətlər kralı Emin Hüseynov və...Bu siyahını artırmaq da olar...

### Uzağı, aprelin əvvəllərinə kimi...

Ümumiyytlə, kişi kimi mübarizə aparmağın, mərdi-mərdanə müxaliflik etməyin nə olduğunu əzəl zamandan bilməyən bu sülalə yığnağı barələrində üzə çıxan yüzlərlə faktlardan sonra hansı üzlə millət qarşısına çıxırlarsa, bunu təsəvvürə gətirmək belə, çox çətindir. Çünki özündə bir balaca insanlıq keyfiyyəti olacaq istənilən kəs, belə hallardan sonra özləri öz xoşları ilə cəmiyyətdən təcrid olunurlar. Ancaq bunların dişlərinin dibində qalmış “hakimiyyət iştahası” bu təcridin qarşısını alır. Ancaq görək, haraya və nə zamana qədər. Yəqin ki, çox çəkməyəcək. Uzağı aprelin əvvəllərinə kimi...

# ABŞ Konqresinin binası qarşısında etiraz aksiyası keçirilib



Martın 13-də Vaşinqtonda Kapitoliya binası qarşısında “ayaqqabı” aksiyası keçirilib. Konqresin binası qarşısındakı çəmənliyə 7000 cüt uşaq ayaqqabısı düzülüb. Uşaq ayaqqabıları 2012-ci ildə Konnektikut ştatındakı “Sendi-Huk” məktəbində kütləvi qətldən başlayaraq, son 5 ildən bir qədər artıq müddətdə 7000 uşağın öldürülməsinin rəmzidir. Etiraz aksiyası “Avaaz” qlobal təşəbbüskarlıq təşkilatı tərəfindən təşkil edilib. Bu ictimai təşkilatın fəalları ABŞ Konqresinin binası qarşısına düzdükləri ayaqqabıları bütün ölkə ərazisindən toplayıblar. Fəallar ölkə qanunlarının qəbul edildiyi binanın qarşısına uşaq ayaqqabılarını düzməklə hakimiyyət orqanlarının diqqətini silah satışı və onun əldə edilməsinin mümkünlüyü barədə qanunları dəyişməyin zəruri olmasına cəlb etməyə çalışırlar. “Avaaz” təşkilatı 7000 rəqəmini Xəstələnməyə Nəzarət Mərkəzinin statistikası ilə əsaslandırıb. Mərkəzin hesabatında bildirilir ki, odlu silahla atəşaçmadan istifadə edilməklə zorakılıq nəticəsində hər il 1300 uşaq həyatını itirir.



# Angela Merkel dördüncü dəfə Almaniya kansleri seçilib

Bundestaqın deputatlarının əksəriyyəti Angela Merkelin AFR kansleri postuna yenidən seçilməsinə səs verib. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, dünən Berlində keçirilən parlamentin iclasında onu 364 deputat dəstəkləyib. Beləliklə, lazımi miqdarda səs toplayan Angela Merkel dördüncü dəfə Almaniya kansleri seçilib. Gizli səsvermənin nəticələri deputatlar tərəfindən sürəkli və uzunmüddətli alqışlarla qarşılanıb.

# Məşhur fizik Stiven Hokinq 76 yaşında vəfat edib

Məşhur britaniyalı fizik Stiven Hokinq Kembricdəki evində vəfat edib. AZƏRTAC xəbər verir ki, “The Guardian” nəşrinin yaydığı məlumata görə, alimin övladları Robert, Timoti və Lyusi atalarının elmi irsinin uzun illər yaşayacağını, onun böyük alim və qeyri-adi insan olduğunu söyləyiblər.

Stiven Hokinq 1942-ci ildə Oksfordda anadan olub. 1963-cü ildə ona amiotrofik skleroz diaqnozu qoyulub. Bundan 22 il sonra sətəlcəm olmuş alim daha sonra traxeostomiya keçirib və nəticədə danışmaq qabiliyyətini itirərək nitq sintezatorundan istifadə edib. Məşhur fizik “Qara dəliklər və yeni kainatlar”, “Dünya iki kəlmə ilə”, “Zamanın ən qısa tarixi” və digər kitabların müəllifidir.

# Mitinq uğursuzluğunun məntiqi reallığı

*26 ildir müxalifətdə qalaraq, heç bir siyasi uğur qazanmayanların bundan sonra hər hansı bir nailiyyət əldə edəcəklərini düşünmək, sadəcə, sadəlövhlükdür*



Sirr deyil ki, dağıdıcı müxalifətin mitinqi və bir sıra hallarda, daha dəqiq desək, seçkilər ərəfələrində tətbiq etdikləri "seçkiləri boykot" taktikaları dəfələrlə uğursuzluqla nəticələnib. Təkcə ötən ilin payızında və bu yaxınlarda keçirilən aksiyalar da sözügedən amili kifayət qədər təsdiq edir. Bu gün özlərinə "müxalifət lideri" deyənlər gerçək kütləvi aksiyaların necə olduğunu, hansı rekord saylara imza atdığını yaxşı xatırlayarlar. Müstəqillik əldə etmək üçün keçirilən ümumxalq hərəkatı zamanı kütləviliyi ilə dünyaya səs salan mitinqlər barədə danışmaq kifayət edər ki, əsl kütləvi mitinqin necə olduğunu görsünlər. 1988-90-cı illərdə "Azadlıq" meydanına toplaşaraq, bir milyon insanın müstəqillik tələb etməsi də bu xüsusdandır. Ona görə də, bu gün "Məhsul" stadionunda mitinq keçirənlər "on minlərlə" ifadəsini işlədərkən, hərəkat dövrünü xatırlayıb, əslində, məlum iddialarından xəcalət çəkməlidirlər. Ancaq bunun yerinə, hələ də "kütləvi dəstək" əldə etdiklərini deyirlər. Halbuki...

### Mitinq faktoru artıq tarixə çevrilir, ona maraq dayanmadan tükənir

Halbuki bu gün ictimai-siyasi həyatda fəal olanların çoxları bilirlər ki, mitinqlər, kütləvi aksiyalar, əsasən, informasiyaların və məlumatların qıt olduğu, yaxud həmin faktorların qarşısının alındığı zamanlarda daha effektli olur. Çünki məlumatsız insanlar istər-istəməz təşkil edilən aksiyalara gedərək, ən azından, hər hansı hadisələrlə bağlı informasiya əldə edirlər. Əgər Azərbaycanda söz və mətbuat azadlığı, eləcə də, internet azadlığı mövcuddursa və informasiya əldə etmək üçün digər resurslara çıxışlara da maneəsiz şəkildə qoşulmaq mümkündürsə, deməli, insanlar, məhz həmin informasiyaları əldə etmək üçün daha rahat istifadəni seçirlər. O cümlədən, mitinq faktoru artıq tarixə çevrilir, ona maraq dayanmadan tükənir. Ümumiyyətlə, söz oyunu ilə xalqı özlərinə tərəf cəlb etməyə cəhd göstərən radikal müxalifət "liderlərinin" guya Qərb ölkələrində, Avropada insanların işləməsələr belə, havayı maliyyələr əldə etmələri, özləri tərəfindən tərtib edilən "mükəmməl qanun layihələri" yazmaları və s. barədə dedikləri ifadələrinə artıq kimsə inanmır. Həm də, ona görə inanmır ki, 26 ildir müxalifətdə qalaraq, heç bir siyasi uğur qazanmayanların bundan sonra hər hansı bir nailiyyət əldə edəcəklərini düşünmək, sadəcə, sadəlövhlük olaraq qiymətləndirilə bilər.

### "Liderlərə" müxalifətdə qalıb, siyasi biznes qurmaq daha maraqlıdır

Başqa tərəfdən, zaman-zaman dağıdıcı müxalifətin xarici ölkələrdəki havadarlarının, məsələn, "Soros" fondunun, eləcə də digər anti-Azərbaycan meyilli fondların onlara göstərdikləri maliyyə dəstəkləri, demək olar ki, bilavasitə, "liderlərin" ciblərinə axıb. Ümumiyyətlə, bir neçə mitinq təşkil edərək, yerdə qalan maddi hissəni mənimsəyən siyasətbazların hakimiyyətə yiyələnmək istəklərinə inananlar varsa, onlar kökündən yanılırlar. Çünki "liderlərə" müxalifətdə qalıb, siyasi biznes qurmaq daha maraqlıdır. Təkcə, saxta partbiletləri və arayışları müəyyən rüşvətlər hesabına "siyasi mühacir" statusu ilə birgə insanlara satmaq külli miqdarda maliyyə əldə etməyə zəmin yaradır. Bunun üçün isə, mitinq adı altında süni eyforiya düzənləyib, siyasətlərini biznesə çevirmək "liderləri"n başlıca məqsədləridir. Bütün bunları əllərində saxlamaq üçün isə bacardıqları qədər dövlətçilik maraqları əleyhinə çıxışlar etmək, çağırışları və şüarları ilə ətraflarında qalan beş-üç nəfəri əldə saxlamaq lazımdır. Ancaq getgedə həmin beş-üç nəfərlər də siyasi dividend və biznes maraqlarını üstün tutan "liderlərdən" kənarlaşmaqdadırlar.

### Əbəs deyil ki, hər mitinqdən sonra aksiyadakı çıxışların, təkliflərin deyil, "Stadionda nə qədər iştirakçı olub" sualı ətrafında polemikalara girişirlər

Digər bir məqama da diqqət yetirə bilərik. Misal üçün, heç müxalifət "liderlərinin" özləri də partiyalarında nə qədər üzv və tərəfdar olduqlarını bilmirlər. Çünki bütün seçkilərdə uduzan radikallar yandaşlarını itirməkdə davam edirlər. Görünür, bu səbəbdən, dırnaqarası mitinqlər keçirməklə öz sosial bazalarının miqdarını təxmin etməyə çalışırlar. Əbəs deyil ki, hər mitinqdən sonra aksiyadakı çıxışların, təkliflərin deyil, "Stadionda nə qədər iştirakçı olub" sualı ətrafında polemikalara girişirlər. "Milli Şura"nın martın 10-da keçirdiyi mitinqinin ardınca da bənzər vəziyyət yaşandı. Hətta sosial şəbəkədə bir müxalifətçi tərəfdar yazıb ki, "Məhsul"da yetərincə insan olmasa da, onu hər hansı internet televiziyasından daha çox insan izləyib. Əlbəttə, bu iddia da özü-özlüyündə gerçəkliyi əks etdirmir. Daha doğrusu, müxalifətçi olmayanlar da istənilən internet resursuna daxil olaraq, hər hansı prosesi izləyə bilərlər. Onların da adını "müxalifət tərəfdarı" qoyub, "Milli Şura"nın, Müsavatın, "NİDA" hərəkatının və s. xırda QHT-lərin birgə mitinqini izləyənlər sırasına qatmaq, sadəcə, siyasi və uğursuz manipulyasiyadır.

Beləliklə, mitinq iştirakçılarının sayı ətrafında "siyasi güclərini" ölçən radikal müxalifət "liderləri", onu da anlamağa məhkumdurlar ki, aksiyaları icazəli olaraq keçirilib və icazəli olsa belə, həmin tədbirlərinə maksimum 1000-1500 nəfər adam toplaşıb. Bu sayın yarısının jurnalist və polis işçiləri olduğunu da nəzərə alarsaq, deməli, həqiqətən də, radikallar siyasi qıtlıq çəkirlər və bu qıtlıq onların siyasi sonlarını daha da yaxınlaşdırır.

**Rövşən NURƏDDİNOĞLU**

### Vidadi - boss nökəri

İskəndərli Vidadidi o nadan,
Olmayıbdı, olmayacaq o, adam,
Söyür əbləh dil boğaza qoymadan,
Ən radikal lider deyir özünə.

Lider deyil, onda var köntöy əda,
Fransada cəlb edir onu qida,
Mahiyyətcə adi bir satqın gəda,
Lənət olsun, güllə dəysin gözünə.

Burdan qaçdı, Fransada ayıldı,
Söyüşləri bosslarına yayıldı,
Bir nömrəli iftiraçı sayıldı,
Qayıtsa, el tüpürəcək üzünə.

Yüz faizdi bu satqının əmsalı,
Fırlatmaqda məharətlə bir valı,
"Kaf, kaf" içir bossun tökdüyü yalı,
Bundan sonra satılacaq yüzünə.

**VALEH**

## Avtobuslarda detektorlar quraşdırılacaq

Bakının ictimai nəqliyyatında xüsusi detektorlar sınaqdan keçiriləcək. SİA-nın məlumatına görə, bu barədə layihəyə yaxın mənbə bildirib. Həmin detektorlar sürücülərin içkili olub-olmadığını müəyyənləşdirməyə imkan verəcək.

Mənbənin sözlərinə görə, bu qurğuları mərkəzləşdirilmiş idarəetmə sisteminin tətbiq olunduğu istənilən ictimai nəqliyyat vasitəsində (avtobus, taksi və b.) istifadə etmək mümkündür: "Cihaz sürücülərin ayıqlıq vəziyyətinə nəzarət etməyə, eyni zamanda, siqaret tüstüsünü müəyyən etməyə imkan verəcək. Bu barədə məlumat avtomatik olaraq idarəetmə mərkəzinə göndəriləcək. Məlumatların ötürülməsi üçün GDM əlaqə kanallarından istifadə olunacaq". Qurğu artıq növbəti rübdə sınaqdan keçiriləcək.

## Partiya sədri: "Əslində, müxalifət özünü boykot edib"

"Ümumiyyətlə, müxalifət özünü neçə illərdir ki, siyasətdən kənara qoyub. Onlar siyasətdən başqa hər şeylə məşğuldurlar". Bunu SİA-ya açıqlamasında "Yurddaş" Partiyasının sədri Mais Səfərli deyib. Onun sözlərinə görə, bu insanların başlıca fəaliyyəti Prezidentimizin parlaq fəaliyyətinə qara yaxmaq, şər-böhtan atmaq, Azərbaycan dövlətinin inkişafından qısqanclıq hissləri keçirməkdir: "Yəni onların başqa siyasi fəaliyyəti yoxdur. Bu qüvvələr siyasi nəzəriyyələrdə nəzərdə tutulan kimi fəaliyyət göstərmirlər. Ən acınacaqlısı isə özlərini siyasətdən boykot ediblər. Əslində, onlar heç boykot sözünün mənasını da bilmirlər. Əgər onlar sözün həqiqi mənasında boykot etsəydilər onda gərək seçkilər baş tutmazdı. Bu qüvvələr o qədər cılızdırlar ki, cəmiyyətin, seçicilərin dəstəyindən o qədər məhrum olublar ki, onlar bütün seçkiləri uduza-uduza gəlirlər. Təkcə seçkiləri deyil, öz tərəfdarlarını da itirə-itirə gəlirlər. Liderlər və onların ətrafında 5-10 nəfər dostlarından, yaxınlarından başqa heç kəs yoxdur. İctimai, siyasi təsir gücünə malik ola bilməyən qüvvələr hansı boykotdan danışa bilərlər".

# Sosial şəbəkə istifadəçilərinin qənimi tutuldu

Daxili işlər orqanlarının əməkdaşları tərəfindən informasiya texnologiyalarından istifadə edilməklə törədilən kibercinayətlərlə mübarizə, onların qarşısının alınması və ifşa edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə "İnstagram" sosial şəbəkəsində "xaker_telefon_izle" adlı səhifənin sahibinin vətəndaşların etibarından sui-istifadə edərək onları dələduzluq yolu aldatdığı və külli miqdarda pullarını mənimsədiyi barədə məlumat daxil olub.

Aparılan əməliyyat-texniki tədbirlər nəticəsində müəyyən edilib ki, həmin səhifədə insanlara pul müqabilində guya xüsusi kompüter proqramlarının köməkliyi ilə qarşı tərəfin xəbəri olmadan "mobil telefonun yönləndirilməsi", "telefonda ön kameranın açılması" və bu üsulla telefon sahibinin gedəcəyi yerlər haqqında məlumatların əldə edilməsi kimi uydurma xidmətlər təklif olunur. Keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində "xaker_telefon_izle" səhifəsinin Ağdam rayon sakini Nurlan İsmayılov adlı şəxs tərəfindən idarə olunduğu müəyyən edilib və o, saxlanılaraq məsuliyyətə cəlb edilib. Araşdırma zamanı müəyyən edilib ki, saxlanılan şəxs qarşı tərəfin şəxsi məlumatlarını əldə edəndən sonra öz adına poçt vasitəsilə 600 manat pul göndərilməsini istəyib.





N. İsmayılov pulu əldə edən kimi həmin şəxsləri sosial şəbəkələrdə "qara sıyahı"ya ataraq onlarla əlaqələrini kəsib. Saxlanılan şəxs bu üsulla 200 nəfərə yaxın insanı aldatdığını, həmçinin tələb etdiyi pulu verməyənləri ona göndərilən məlumatları yayacağı ilə də hədələyib. N. İsmayılov ifadəsində "İnstagram"da səhifəsinə müraciət edən insanlara yalan vədlər verdiyini və vətəndaşları dələduzluq yolu ilə aldadaraq pullarını ələ keçirdiyini etiraf edib. Faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir. DİN vətəndaşlara xəbərdarlıq edərək sosial şəbəkələrdən istifadə edən zaman bu tipli vədlər verərək insanları dələduzluq yolu aldadan və pullarını mənimsəyən, həmçinin müəyyən xidmətlər müqabilində şəxsi məlumatlar tələb edən səhifələrdən uzaq durmağı tövsiyə edir.

# Demokratiya, insan hüquqları və azadlıq

***İnsan haqları azadlıq və məsuliyyət kontekstində müdafiə olunur. Məlum olduğu kimi, dünya xalqlarının milli ideyası aşağıdakı komponentlərdən ibarətdir:***

**1.** Demokratiya;
**2.** Azadlıq;
**3.** İnsan haqları.

İstənilən dövlət və xalq müasir qloballaşan dünyada təcrid olunmuş vəziyyətdə yaşaya və inkişaf edə bilməz. Demokratiyanın təmin edilməsində maddi tələbatların əsas rol oynadığını nəzərə alsaq, qeyd edilməlidir ki, dünyada maddi sərvətlər, resurslar bərabər paylanmadığından dövlətlər arasında iqtisadi əlaqələrin və dövlətlətlərarası münasibətlərin yaradılması zəruridir. Politoloq Elşən Nəsibov yazır: "Bu amillərlə yanaşı, dünyada baş verən və eləcə də, Yer kürəsinin bütün sakinlərinin təbii hüquq və azadlıqlarına mənfi təsirlər göstərən ümumi proseslər-terror dalğalarının geniş yayılması, cinayətkar qrupların narkotik vasitələrinin biznesi və silah qaçaqmalçılığı, adam oğurluğu və başqa dövlətlərə satılması, kütləvi qırğınlarla nəticələnə biləcək qlobal müharibələr təhlükəsi, ümumbəşəri mövcudluğa son qoya bilmək imkanlarına malik silahların mövcudluğu, ölümlə nəticələnən xəstəliklərin geniş yayılması, Yer kürəsində ekoloji tarazlığın kəskin pozulması, təbii fəlakətlər, qlobal istiləşmə, atmosferin korlanması ilə insan həyatına təsir göstərən amillərin və digər belə xarakterli problemlərin həlli məqsədilə qərarların qəbul edilməsində və icrasında dünya dövlətləri, xalqları birlikdə təşkilatlanmaq və ümumi güclərini səfərbər etmək məcburiyyətində qalırlar". Müəllifin fikrincə, bununla yanaşı, demokratik elementlərin təmin edilməsində mühüm rol oynayan elm və təhsil mübadiləsini həyata keçirmək, cinayatkarların tranzitinin qarşısını almaq, elmin nailiyyətlərinə birgə yiyələnmək, ümumdünya iqtisadiyyatında, səhiyyədə texnologiyanın tətbiqini birgə mənimsəmək, ayrı-ayrı xalqların mədəniyyətini və incəsənətini, tarixini öyrənmək, dünya sirlərinə bələd olmaq məqsədilə də dövlətlər arasında əlaqələrin yaradılması zəruridir.

Məhz həmin prinsiplərdən çıxış edərək, dövlətlər müvafiq xarici siyasət həyata keçirirlər. Müasir dövrdə Azərbaycan Respublikası dünyanın tərkib hissəsi olaraq, zamanın tələblərinə uyğun xarici siyasət yeridir. Azərbaycanın xarici siyasəti regional və qlobal səviyyədə tarazlaşdırılmış prinsiplərlə, beynəlxalq normalara müvafiq olaraq, demokratiyanın tərkib elementlərinin təmin edilməsi məqsədilə, Azərbaycan xalqının və dövlətinin milli təhlükəsizliyinin qorunmasına:

- dövlətin ərazi bütövlüyünün təmin edilməsinə və işğala məruz qalmış ölkə vətəndaşlarının hüquqlarının bərpasına;
- daxili ictimai-siyasi sabitliyin təmin edilməsi;
- xarici əlaqələr hesabına daxili iqtisadiyyatın inkişafına;
- elmi-texniki nailiyyətlərin mənimsənilməsinə;
- insanların maddi tələbatlarının tam ödənilməsinə;
- vətəndaşların beynəlxalq aləmə inteqrasiyasına;
- başqa dövlətlərlə birgə insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınmasına;
- regional layihələrin reallaşdırılması ilə dövlətin mövqeyinin beynəlxalq aləmdə gücləndirilməsinə və iqtisadi gəlirlərin artırılması ilə ölkə vətəndaşlarının sosial-rifah halının yüksəldilməsinə və digər əhəmiyyətli məsələlərinin həllinə əsaslanaraq həyata keçirilir.

2008-ci il oktyabrın 15-də keçirilmiş prezident seçkiləri ölkəmizin Heydər Əliyev tərəfindən əsası qoyulmuş demokratik cəmiyyət quruculuğu yolu ilə dönmədən irəliləndiyinə daha bir sübut oldu. Xalqın böyük əksəriyyətinin iradəsilə yenidən beş il müddətinə Prezident seçilmiş İlham Əliyev oktyabrın 24-də keçirilən andiçmə mərasimindəki nitqində son illərdə Azərbaycanda qazanılmış böyük uğurları ümumiləşdirməklə yanaşı, gələcək dövrdə sosial inkişafa, xalqın hüquq və azadlıqlarının genişləndirilməsinə xüsusi diqqət yetirilməsinin, siyasi sistemin təkmilləşdirilməsinin, bütün inkişaf etmiş ölkələrdə əldə edilmiş müsbət təcrübənin ölkəmizdə tətbiq olunmasının zəruriliyini vurğulamışdır.

İnsanın hüquq və azadlıqları konstitusiyada təsbit olunmuşdur. Bu baxımdan da, hüquq və azadlıqlar dövlətin təbiətini müəyyənləşdirir. Hakimiyyət üzərində nəzarət vasitəsidir, demokratik rejimin və hüquqi dövlətin əsas əlamətidir. Hüquqi dövlətin əsas əlamətlərindən biri kimi hüquq və azadlıqlar: dövlətin və onun orqanlarının fəaliyyəti və təşkilində demokratiyanın bilavasitə və müxtəlif nümayəndəli formalarında iştirak etmək səlahiyyətidir.

Hüquq və azadlıqlar vətəndaşın siyasi proseslərdə fəal iştirakını təmin edir, vətəndaş, cəmiyyəti və hüquqi dövlət arasındakı əlaqələrin möhkəmləndirilməsi üçün şərait yaradır. Hüquq və azadlıqlar içərisində vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında və idarə olunmasında iştirak etmək hüququ əsas yer tutur. Dövlətin idarə olunmasında vətəndaşın iştirakı seçkilər, referendumlar, habelə, qanunverici, icra və məhkəmə hakimiyyətində iştirak etmək vasitəsilə həyata keçirilir.

Dövlətin idarə olunmasında iştirak etmək hüququ dövlət və onun vətəndaşı arasında qarşılıqlı münasibətlərin əsas prinsiplərdən biridir. Konstitusiyanın 54-cü maddəsində vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ təsbit olunmuş, onların dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək hüququ da müəyyən edilmişdir. 55-ci maddədə vətəndaşların dövlətin idarə olunmasında, bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak etmək, dövlət orqanlarında qulluq etmək hüququ da öz əksini tapmışdır. Bunun üçün müvafiq qanunlar da qəbul edilmişdir.

Müraciət etmək hüququ vətəndaşın dövlət və ictimai xarakterli məsələlərin həllində şəxsi təşəbbüskarlığının inkişafını həyata keçirir. AR Konstitusiyasının 57-ci maddəsində AR vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, fərdi və kollektiv yazılı müraciətlər göndərmək, dövlət orqanlarının, vəzifəli şəxslərin və s. fəaliyyətini tənqid etmək hüququ təsbit olunmuş, tənqidə görə (təhqir, böhtan istisna olmaqla) təqib etmək qəti qadağan edilmişdir.

Bir sözlə, Əsas Qanunda təsbit olunmuş insan hüquqları idarəçiliyin əsası və dövlətçiliyin idealıdır. Azərbaycanın hüquqi-demokratik dövləti insan ləyaqətini, onların azadlıq və bərabərliyini, şəxsiyyətin özünəməxsusluğunun, iradə azadlığını qoruyur.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev yazır: "Qeyd olunan mürəkkəb və genişmiqyaslı vəzifələrin uğurlu həlli sosial-fəlsəfi tədqiqatlar sahəsində də vaxtı çatmış problemlərin araşdırılmasını təkidlə tələb edir. Söhbət, hər şeydən əvvəl, cəmiyyət həyatının bütün tərəflərində gedən real proseslərin bütün dolğunluğu və hərtərəfliliyi ilə obyektiv elmi təhlilini verməkdən, onların səmərəliliyinin artırılmasını və sürətlənməsini stimullaşdıran şərtləri və amilləri aşkara çıxarmaqdan gedir. Belə problemlər sırasında azadlığın elmi fəlsəfi konsepsiyasının yaradılması xüsusi önəm kəsb edir. Bu, onunla şərtlənir ki, cəmiyyətdə baş verən sosial, iqtisadi, siyasi, mənəvi və sair dəyişiklikləri adekvat anlamaq üçün, onların yaradıcısı olan insanın mahiyyətini hərtərəfli dərk etmək tələb olunur. Bu isə, azadlığın dərindən və hərtərəfli araşdırılmasından kənarda qeyri-mümkündür. Məhz azadlıq sosial subyektin başlıca səciyyəsi olmaqla, ictimai fəaliyyətin özülünü və mənbəyini təşkil edir. Nəzərdə tutulmalıdır ki, demokratikləşmə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu dövründə azadlıq öz inkişafında yeni keyfiyyət mərhələsinə daxil olur, onun mahiyyəti dərinləşir, məzmunu və miqyasları sürətlə genişlənir. Buna müvafiq olaraq, ictimai fəaliyyətin bütün sahələrində azadlığın rolu və təsir dairəsi artır. Azad seçim, qərar qəbuletmə və onu müstəqil həyata keçirmək sosial subyektlərin yüksək yaradıcı fəallığının və güclü mənəvi potensialının dolğun reallaşmasının zəruri şərtinə çevrilir. Buradan aydın olur ki, azadlıq problemini obyektiv və hərtərəfli təhlil etmək, onun araşdırılmasına mühüm töhfələr vermiş klassik fəlsəfi irsə arxalanmaqla müasir sosial reallığın yaratdığı yeni cəhətləri və meyilləri dərindən öyrənib, ümumiləşdirmək sosial fəlsəfənin qarşısında duran ən aktual vəzifələrdəndir. Bu araşdırmanın elmi və praktiki zəruriliyi aşağıdakı səbəblərdən irəli gəlir".

Müəllifin fikrincə, hər şeydən əvvəl, qeyd olunmalıdır ki, ümumbəşəri universal dəyərlər sistemində xüsusi yer tutan azadlıq, ümumi və mücərrəd məzmuna malik olmayıb, konkret-tarixi səciyyə daşıyır, onun mahiyyəti və məzmunu, reallaşması miqyası, mövcud ictimai quruluşun xarakteri və inkişaf səviyyəsi ilə şərtlənir. Yaşadığımız açıq, demokratik cəmiyyətə keçid dövründə bütöv kimi götürülən ictimai həyatın bütün tərəflərində baş verən əsaslı transformasiya prosesləri, totalitarizmin qətiyyətlə aradan qaldırılması, köhnə ictimai strukturların ləğv edilməsi və sosial həyatın təşkilinin yeni formalarının tətbiqi miqyasının genişlənməsi insanların müxtəlif sahələrdə real azadlıqlarının inkişafında yeniyeni üfüqlər açır.

Müasir Azərbaycan dövlətinin yeritdiyi uzunmüddətli düşünülmüş səmərəli xarici siyasəti, dünya birliyi ölkələrinə getdikcə daha möhkəm inteqrasiya olunma xətti buna əlverişli beynəlxalq təminat yaratmaqla yanaşı, azadlığın reallaşmasında dünya təcrübəsindən səmərəli bəhrələnmək, onu xalqımızın və regionun tarixi, milli özünəməxsusluqları və xüsusiyyətləri ilə düzgün əlaqələndirməyi tələb edir. Bu vəzifənin uğurlu həlli müvafiq elmi axtarışların intensivləşməsinə zərurət yaradır.

Digər tərəfdən, marksist fəlsəfə uzun müddət azadlığın nəzəri mənalandırılmasında və onun praktiki reallaşmasında ciddi deformasiyalara və əyintilərə yol vermişdi ki, bu, müxtəlif tarixi dövrlərdə görkəmli mütəfəkkirlərin azadlığa dair irəli sürdüyü dərin elmi müddəaları ilə ziddiyyət təşkil etməklə, insanların azadlıq haqqında təsəvvürlərinin bəsitləşməsi təhlükəsi törətmişdir. Onları aradan qaldırmaq, azadlığın elmi-fəlsəfi konsepsiyasını özünün tam hüquqluluğu ilə bərpa etdirmək və ona müasir dövrün xarakterindən və tələblərindən irəli gələn elmi dəqiqləşmələr və konkretləşmələr etmək son dərəcə vacibdir.

Sonra göstərilməlidir ki, azadlıq, sadəcə, xeyirxah ideya, xoş niyyət və ideal olmayıb, həm də insanların gündəlik həyatında daim əldə rəhbər tutduqları konkret fəaliyyət prinsipidir. Buna görə də, onların azadlıq haqqında bilikləri nə qədər adekvat olarsa, azad fəaliyyət göstərmək əzmi, onu həyata keçirməyə yönələn fəallıq dərəcəsi də, bir o qədər yüksək olar. Həm də, nəzərdə tutulmalıdır ki, azadlıq öz təbiəti və mürəkkəbliyi üzündən son dərəcə çətin anlaşılan, qeyri-müəyyən xarakter daşıyan, buna görə də, ən çox dolaşıqlar yaradan anlayışlardandır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 15 mart

## BMT açıqladı: Finlandiya dünyanın ən xoşbəxt ölkəsidir

BMT-nin martın 14-də dərc olunan məruzəsinə əsasən, Finlandiya dünyanın ən xoşbəxt ölkəsi hesab olunub. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, insan ömrünün gözlənilən uzunluğu, sosial dəstək, korrupsiya və bu kimi digər göstəricilərin nəzərə alındığı "The World Happiness Report" məruzəsində dünyanın 156 ölkəsinə qiymət verilib.



"Finlandiya bu hesabatda ilk dəfədir ki, birinci yerə yüksəlib. Ötən il siyahıya liderlik edən Norveç isə ikinci pilləyə enib", - deyə BMT-nin məruzəsində bildirilir. Həmçinin reytinqdə ilk onluğa Danimarka, İslandiya, İsveçrə, Niderland, Kanada, Yeni Zelandiya, İsveç və Avstraliya daxil olub.

## Süfrəyə dad, orqanizmə qüvvət, dəriyə gözəllik verir



Hil yalnız Novruz bayramı və bayram şirniyyatları süfrəsindəki xörək və şirniyyatlara dad qatan ədviyyat deyil, bütün dünyada populyardır. Qədim dövrlərdə "cənnət ədviyyatı" adlandırılan hil zəfəran və vanildən sonra ən bahalı ədivalardan sayılır. AZƏRTAC xəbər verir ki, ondan təkcə kulinariyada deyil, həmçinin, ətir istehsalında, tonik, dodaq nəmləndiricisi kimi məhsulların pis qoxularını aradan qaldırmaq üçün istifadə edilir. Hilin vətəni Hindistan olsa da, onu Şri-Lanka, Çin, Afrika və Amerikada da becərirlər. Qabığının rəngi sarımtıl-yaşıl, toxumu isə qırmızımtıl-qəhvəyidir. Kəskin qoxusu və yandırıcı tamı var.

Ona olan tələbatın əsas səbəbi özünəməxsus ətri ilə yanaşı, həm də sağlamlıq üçün əhəmiyyətli olmasıdır. Soyuqdəymənin qısa zamanda aradan qaldırılması və hipertoniya xəstəliyindən əziyyət çəkənlərin ondan istifadə etməsi çox müsbət təsir göstərir. Güclü afrodiziak təsirə malik bitki olduğuna görə müntəzəm istifadə olunduqda cinsi fəallığı artır, həzm prosesini yaxşılaşır. Ona görə də yeməkdən sonra toxumlarını çeynəmək lazımdır. Eyni zamanda tər və ağız qoxusunu aradan qaldırır. Hildən hipoasid qastrit, ürəkbulanma, qaraciyər ağrısı, böyrək daşının müalicəsi üçün də istifadə edilir, revmatizm, öskürək, zökəmdə də səmərəli müalicə vasitəsidir. Hindistanda hil kökündən stimullaşdırıcı vasitə kimi, həmçinin, qanlı ishalda istifadə olunur. Təbii antiseptik kimi orqanizmdə olan zərərli mikroorqanizmlərlə mübarizə aparır. Ürək fəaliyyətini yaxşılaşdır, beyni stimullaşdırır, yorğunluq və halsızlığı aradan qaldırır. Kofeinin orqanizmə mənfi təsirini azaltmaqla yanaşı, çaya əla dad verir. Hil yağının mütəmadi olaraq istifadəsi üzdəki qırışları və yaşlılıq ləkələrini azaldır.

1 stəkan qaynadılmış suya üçdəbir çay qaşığı hil tozu əlavə edilərək 10 dəqiqə dəmlənir, gündə 3 dəfə yeməkdən sonra qəbul edilməsi tüpürcək vəzilərinin fəaliyyətini artırır, iştahanı yaxşılaşdırır. Bir hissə nanə və bir hissə hil üzərinə 200 qram qaynadılmış su əlavə olunur, 5 dəqiqə vam ocaqda dəmləniləndən sonra çay əvəzinə içilməsi ürəkbulanmanı aradan qaldırır.

1 stəkan qaynadılmış suya yarım çay qaşığı hil əlavə edilib dəmlənir, süzülərək qarqara edilməsi angina və faringit zamanı çox faydalı təsir göstərir.

## ELAN

Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və dizayn fakültəsinin 3-cü kurs tələbəsi Allahverdiyev İlkin Məzahir oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin I kurs tələbəsi Kərimova Rübabə Müşfiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Almaniya Futbol İttifaqı DÇ-2018-in boykot edilməsinin əleyhinədir




Almaniya Futbol İttifaqının (DFB) prezidenti Raynxard Qrindel Rusiyada keçiriləcək dünya çempionatının boykot edilməsinin əleyhinə olduğunu bildirib. Qrindelin sözlərinə görə, belə bir tədbirin mənası yoxdur və o, yalnız zərər verə bilər. Qrindel deyib: - DFB boykota yox, dialoqa əsaslanır. Körpü yaratmaq lazımdır. Boykot xeyir verməyəcək. Koreyada keçirilən Olimpiada göstərdi ki, idman münasibətlərdə gərginliyin azaldılmasına və birləşməyə kömək edə bilər.

Bundan əvvəl Böyük Britaniyanın baş naziri Tereza Mey vurğulayıb ki, onun ölkəsinin hökuməti Rusiya Baş Kəşfiyyat İdarəsinin sabiq əməkdaşı Sergey Skripalın zəhərlənməsi ilə əlaqədar işdə Rusiyaya münasibətdə həyata keçiriləcək tədbirlərdən biri kimi, 2018-ci il dünya çempionatın boykot edilə bilməsi məsələsinin məmurlar və digər rəsmi nümayəndələrlə müzakirə edəcək.




## Lukaku karyerasında 200-cü qolunu vurub

"Mançester Yunayted" klubunun futbolçusu Romelu Lukaku Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin "Sevilya" ilə cavab oyununda fərqlənib (1:2). AZƏRTAC xəbər verir ki, 24 yaşlı hücumçu karyerasında 200-cü qolu vurub. Futbolçu "Anderlext"in heyətində 41, "Vest Bromviç"in formasında 17, "Everton"da 87, "Mançester Yunayted"də 24, Belçika yığmasında isə 31 dəfə rəqib qapısına yol tapıb.

## "Borussiya" Lukaş Pişeklə müqavilə müddətini uzadıb




Almaniya Bundesliqasında mübarizə aparan "Borussiya"da yeni müqavilə qeydə alınıb. SİA-nın məlumatına görə, Dortmund təmsilçisi polşalı futbolçusu Lukaş Pişeklə müqavilə müddətini uzadıb. 32 yaşlı müdafiəçi ilə 2020-ci ilin yayına qədər davam edəcək yeni anlaşma imzalanılıb. Qeyd edək ki, Pişek 2010-cu ildə "Herta"dan "Borussiya"ya transfer edilmişdi.




## PSJ Çin şirkəti ilə 3,5 illik müqavilə imzalayıb

Fransanın PSJ futbol klubu Avropanın hüdudlarından kənarda sponsor axtarışını davam etdirir. AFP agentliyinin yaydığı xəbərə görə, maliyyə fair-play təhlükəsi ilə üzləşən Paris təmsilçisi nəhəng Çin şirkəti olan "Desports" ilə müqavilə imzalayıb. Şirkət klubun Çində və Honkonqda lisenziya hüquqlarının idarə edilməsi və marketinqi ilə məşğul olacaq. Qeyd edək ki, klub ilə Çin şirkəti arasında 3,5 illik müqavilə imzalanıb.

## Dembele "Barselona"dan ayrılmaq istəyir?

"Barselona"nın yarımmüdafiəçisi Usman Dembele komandasını dəyişmək istəyir. Qol.az-ın İspaniya mətbuatına istinadən məlumatına görə, fransız futbolçu Kataloniya klubunda özünü narahat hiss edir. Adətən meydana ehtiyatdan daxil olan Dembele daha çox oynaya biləcəyi komandaya keçmək istəyir. Qeyd edək ki, mövsümün əvvəlində "Borussiya"dan 120 milyon avroya transfer edilən Dembelenin təzminat qiyməti 600 milyon avrodur.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**